

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 01 (895) ▪ 10 yanvar 2018 www.vergiler.az Qiymət: 60 qəp.

# Ötən il qarşıya qoyulan bütün vəzifələr icra edilib

## Prezident İlham Əliyev: «2017-ci il tarixdə dərin, köklü və nəticə verən iqtisadi islahatlar ili kimi qalacaqdır»

**Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bildirib ki, 2017-ci il ölkəmiz üçün mühüm əlamətdar hadisələrlə yadda qalıb. Qeyd olunub ki, ötən il ərzində qarşıya qoyulan bütün vəzifələr icra edilib, Azərbaycanda sabitlik təmin olunub: «Sabitliyin mənbəyi xalq-iqtidar birliyidir. Dünyada gedən xoşagəlməz proseslər, qanlı toqquşmalar, müharibələr, münaqişələr göstərir ki, sabitlik olmayan yerdə inkişafdan söhbət gedə bilməz. Azərbaycan xalqı 2017-ci ildə sabitlik şəraitində yaşamışdır».**



Dövlətimizin başçısı bildirib ki, yola saldığımız ildə beynəlxalq əlaqələrimiz daha da genişlənib: «Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı gündən-günə artır. Azərbaycan dünyada özünü ləyaqətli və etibarlı tərəfdaş kimi göstərir. Qonşu ölkələrlə əlaqələrimiz daha yüksək pilləyə qalxmışdır. Bu əlaqələr hər bir ölkə üçün çox önəmlidir, bizim üçün də. Bütün qonşularımızla qarşılıqlı hörmət əsasında dostluq əlaqələrimiz regional sabitliyə müsbət təsir göstərir. Azərbaycan bu il İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal iştirak edib və İslam həmrəyliyinin inkişafına, güclənməsinə öz dəyərli töhfəsini vermişdir. Bildiyiniz kimi, 2017-ci il Azərbaycanda «İslam Həmrəyliyi İli» elan olunmuşdur və bu il ərzində həm ölkə daxilində, həm xaricdə bir çox önəmli tədbirlər keçirilmişdir. Eyni zamanda, bu il Avropa İttifaqı ilə əlaqələrimiz yeni pilləyə qalxıb, yeni saziş üzərində danışıqlar başlamışdır. Keçən il Azərbaycanda «Multikulturalizm İli» elan olunmuşdur. Azərbaycan dinlərarası, mədəniyyətlərarası dialoqun inkişafında öz dəyərli rolunu oynayır və hesab edirəm ki, dünya miqyasında bu sahədə mərkəzlərdən birinə çevrilmişdir».

Prezident İlham Əliyev vurğulayıb ki, ötən il ölkəmizin xarici siyasətində əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı olub: «Bu istiqamətdə nəticələr olmasa da, hesab edirəm ki, 2017-ci ildə bizim mövqelərimiz daha da möhkəmləndi. Birinci onu qeyd etməliyəm ki, separatist rejim tərəfindən keçirilmiş qondarma «referendum» dünya ictimaiyyəti tərəfindən qəbul edilmədi. Nə qonşu ölkələr, nə Avropa İttifaqı, nə də ki bütün başqa ölkələr bu qondarma «referendum»u tanımadılar və beləliklə, bir daha göstərdilər ki, bütün dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu da təbiidir. Çünki Dağlıq Qarabağ bizim əzəli tarixi torpaqlarımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Sadəcə olaraq, mənfur qonşular tərəfindən bizim tarixi, dini abidələrimiz məhv edilibdir və uzun illərdir ki, bu torpaqlar işğal altındadır. Hesab edirəm, ikinci önəmli məsələ ondan ibarətdir ki, Ermənistan qeyd-şərtsiz danışıqlara qoşuldu, baxmayaraq ki, şərt qoyurdu. Aprel məğlubiyyətindən sonra Ermənistan tərəfindən irəli sürülmüş heç bir şərt Azərbaycan tərəfindən qəbul edilmədi. Danışıqlar qeyd-şərtsiz bərpa edildi. Ümid edirəm ki, danışıqlar nəticəsində biz məsələnin həllinə nail ola bilərik. Əlbəttə ki, danışıqlarda bizim mövqeyimizi güclü iqtisadi və hərbi potensial daha da gücləndirir. Aprel məğlubiyyətindən sonra Ermənistan hələ də özünə gələ bilməyib. Hesab edirəm, bu məğlubiyyət onlar üçün yaxşı dərs olmalıdır, bir daha bütün dünyaya göstərməlidir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq».

Dövlətimizin başçısı ötən il məcburi köçkünlərin problemlərinin həlli işində çox önəmli tarixi hadisə baş verdiyini xatırladıb. Qeyd edib ki, vaxtilə işğal altında olan Şıxarx qəsəbəsində 1170 ailə üçün tikilmiş şəhərcik açılmışdır: «Bu önəmli hadisə bir tərəfdən onu göstərir ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Digər tərəfdən, onu göstərir ki, işğaldan azad edilmiş torpaqlarda Azərbaycan yeni həyat qurur, yeni ictimai binalar, yaşayış binaları salınır və minlərlə köçkün bu torpaqlara qayıdır. Bizim hərbi potensialımız bu il də diqqət mərkəzində olmuşdur. Ordumuz üçün nə lazımdırsa onu da biz həll etdik. Bu gün bütün beynəlxalq reytinqlər göstərir ki, Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Düşmən bunu bilir və bilməlidir. Bundan sonra da ordu quruculuğu üçün bütün lazımi tədbirlər görüləcək, yeni texnika, silahlar, ən müasir döyüş vasitələri alınır və alınacaqdır».

Azərbaycan iqtisadiyyatının inkişafından danışan Prezident İlham Əliyev bildirib ki, 2017-ci il tarixdə dərin, köklü və nəticə verən iqtisadi islahatlar ili kimi qalacaqdır: «Baxmayaraq ki, neftin qiyməti hələ də aşağı səviyyədədir və Azərbaycanda neftin hasilatı düşür, ölkəmiz apardığı islahatlar nəticəsində çətin vəziyyətdən şərəflə çıxa bilmişdir. Bunu beynəlxalq mötəbər təşkilatlar da qeyd edir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına, ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir. Bu, ilk növbədə, onu göstərir ki, ölkəmizdə aparılan çox ciddi islahatlar gözəl nəticələr verir. Bu il iqtisadiyyatın qeyri-neft sektoru 2 faizdən çox, iqtisadiyyatımızın qeyri-neft sənayesi 3 faizdən çox, kənd təsərrüfatı isə 4 faizdən çox artmışdır. Hesab edirəm ki, indiki şərait üçün bu, çox yaxşı nəticədir. Əminəm ki, 2018-ci ildə rəqəmlər daha da böyük olacaq. Eyni zamanda, biz öz valyuta ehtiyatlarımızdan da çox səmərəli şəkildə istifadə etdik. Baxmayaraq ki, neftin qiyməti aşağı düşüb, biz valyuta ehtiyatlarımızı artıra bilmişik, özü də böyük dərəcədə. Valyuta ehtiyatlarımız 4,5 milyard dollardan çox artmışdır. Bu da bizim strateji ehtiyatımızdır, bizə həm iqtisadi, həm də siyasi müstəqillik verən və onu gücləndirən amillərdən biridir».

2017-ci ildə enerji və nəqliyyat sektorunda tarixi hadisələrin baş verdiyinə diqqət çəkən dövlətimizin başçısı «Azəri-Çıraq-Günəşli» neft yatağının istismar müddətinin uzadılması məsələsinin həll edildiyini, kontraktın müddətinin 2050-ci ilə qədər qüvvədə olacağını və ölkəmizə milyardlarla dollar gəlir gətirəcəyini vurğulayıb: «Azərbaycana verilən bonus 3 milyard dollardan çoxdur. Cənub Qaz Dəhlizinin icrası demək olar ki, son mərhələyə qədəm qoyub. Gələn il TANAP layihəsinin açılışı gözlənilir. Bu da tarixi hadisədir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində çox önəmli tərəfdaşa çevrilir. Bu il digər tarixi layihə öz həllini tapmışdır, Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi Bakıda keçirilmişdir. Bu dəmir yolu layihəsi qitələri birləşdirir. Bakı-Tbilisi-Qars Asiya ilə Avropa arasında ən qısa və etibarlı yol olacaq, bundan sonra onilliklər ərzində Azərbaycana həm iqtisadi, həm siyasi dividendlər gətirəcək. Azərbaycan önəmli tranzit ölkəsinə çevrilir. Əgər biz Şimal-Cənub nəqliyyat dəhlizini də qeyd etsək görərik ki, Azərbaycan dünya miqyasında, - baxmayaraq ki, bizim açıq dənizlərə çıxışımız yoxdur, - strateji nəqliyyat mərkəzinə çevrilir».

Azərbaycan Prezidenti ötən il idmançılarımızın əldə etdiyi uğurları da xüsusi qeyd edib: «İdmançılarımız bizi qələbələrlə sevindirmişlər. Bakıda ən yüksək səviyyədə keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançıları birinci yerə layiq görüldülər. Bütün müsəlman aləmində birinci yeri qazanmaq çox böyük tarixi nailiyyətdir. Əgər biz 2015-ci il Avropa Oyunlarını yada salsaq, orada da Azərbaycan komandası ikinci yerdə idi. Yəni, bu, bir daha onu göstərir ki, Azərbaycan güclü idman dövlətidir».

# Yeni terminal ən müasir texniki tələblərə cavab verir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində RO-RO terminalının açılışında iştirak edib, kompleksdə görülən işlərlə tanış olub.**



Bildirilib ki, Baş Plana əsasən, yeni liman kompleksinin hazırda inşası aparılan birinci fazası 12 yanalma körpüsünə malik olmaqla, yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min ədəd 20 futluq konteyner təşkil edir. Birinci faza çərçivəsində Ro-Ro tipli gəmilər üçün 2 körpü, 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı, 2 bərə körpüsü, eləcə də xidməti donanma gəmiləri üçün 1 körpü nəzərdə tutulub. Həmçinin xidməti donanma gəmiləri üçün təmir bazasının, limanın əməliyyat binasının, yük sahələri və anbarların, sərhəd və gömrük xidməti məntəqələrinin, ümumilikdə, 72 müxtəlif təyinatlı bina və qurğuların tikintisi, sərnişinlər üçün beynəlxalq terminalın layihələndirilməsi, kranların alınması, təchizatı və quraşdırılması aparılacaq.

Qeyd edilib ki, ildə 60 minə yaxın TIR və ya 1,8 milyon ton yük qəbul etmək imkanında olan yeni Ro-Ro terminalı ən müasir texniki tələblərə uyğun tikilib. Terminaldakı birinci körpünün illik yükaşırma qabiliyyəti 800 min ton, ikinci körpününkü isə 1 milyon tondur. Terminal daşımaların avtomobil-su və su-avtomobil seqmentlərində təkərli texnikanın daşınması üçün nəzərdə tutulur. Layihə qrafikinə əsasən, bu il yanvarın sonunadək digər yeddi ümumi yük körpüsünün tikintisi tamamlanacaq. 2018-ci ilin birinci rübünün sonunadək isə anbarların, yardımçı binaların, digər əlaqəli infrastruktur obyektlərinin inşasının, onların mühəndis-kommunikasiya xətlərinin çəkilməsinin, həmçinin yardımçı sistemlərin quraşdırılmasının yekunlaşdırılması nəzərdə tutulur. Layihə çərçivəsində müasir tələblərə cavab verən informasiya texnologiyaları və təhlükəsizlik infrastrukturunun yaradılmasına xüsusi diqqət göstərilir.

Sonra dövlətimizin başçısına hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin inşaat ərazisində görülən işlər barədə məlumat verilib. Prezident İlham Əliyev inşaat ərazisini gəzib, işlərin gedişi ilə yaxından tanış olub. Qeyd olunub ki, Yeni Bakı limanının tikintisində ən müasir standartlara cavab verən son mühəndislik yeniliklərindən istifadə olunur. Layihə çərçivəsində, həmçinin, gəmilərdən toplanmış neft tərkibli və məişət sularının təmizlənməsi üçün Xəzər dənizi hövzəsində ilk dəfə ən son texnologiyaya əsaslanan suyun bioloji təmizlənməsi qurğuları tikilib. Yükləmə-boşaltma əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi məqsədilə Almaniyanın «Ardelt» şirkətindən müxtəlif yük təyinatlı yeni portal texnika alınıb və hazırda quraşdırılması həyata keçirilir.

Yeni liman ötən il istismara verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün bilavasitə yükcəmləyici məntəqə funksiyasını yerinə yetirəcək. Beləliklə, Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək, buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə Şərq istiqamətində nəql olunmasını təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranacaq. Yeni limanın ərazisi də daxil olmaqla ətraf ərazilərdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi limana daha geniş tranzit və daşıma imkanları təmin edəcək.

# Azərbaycan Prezidenti yeni səfirləri qəbul edib

Yanvarın 8-də Bosniya və Herseqovinanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bakir Sadoviçin etimadnaməsini qəbul edən dövlətimizin başçısı söhbət zamanı ölkələrimiz arasında yüksək səviyyəli görüşlərin əhəmiyyətinə toxunaraq, ikitərəfli münasibətlərimizin çox yaxşı səviyyədə olduğunu bildirib, dostluq əlaqələrinin daha da möhkəmləndirilməsinin önəmini vurğulayıb.

Həmin gün Prezident İlham Əliyev Nigeriyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hamzat İbrahimin də etimadnaməsini qəbul edib. Dövlətimizin başçısı Nigeriyanın Azərbaycan üçün qardaş ölkə olduğunu vurğulayaraq ölkələrimizin beynəlxalq səviyyədə, BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bir-birini dəstəkləməsinin əhəmiyyətini qeyd edib. Siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu deyən dövlətimizin başçısı, eyni zamanda, qarşılıqlı ticarətin səviyyəsinin artırılması, investisiya qoyuluşu, biznes sahəsində əməkdaşlıq imkanlarının müəyyən edilməsinin önəmini vurğulayıb və bu baxımdan iki ölkə arasında müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin zəruriliyini bildirib.

Prezident İlham Əliyev yanvarın 8-də Ekvatorial Qvineyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xose Esono Miça Akenqin və Monqolustanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bold Ravdanın etimadnamələrini də qəbul edib. Görüşlərdə ölkələrimiz arasında əvvəllər mövcud olan əlaqələrin bərpa edilməsinin önəmi vurğulanıb, müxtəlif istiqamətlərdə, xüsusilə də enerji, təhsil, sərmayə qoyuluşu, idxal-ixrac sahələrində və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsinin vacibliyi bildirilib.

Azərbaycanın vergi sistemi 2017-ci ildə... 2

Kiçik və orta sahibkarlıq üçün yeni yol xəritəsi 3

Güzəştli kreditlərin böyük hissəsi regionların payına düşür 4

2018-ci il üçün makroiqtisadi proqnozlar 5

# Azərbaycanın vergi sistemi 2017-ci ildə...

**Ötən il ölkədə əlverişli sahibkarlıq və investisiya mühitinin yaradılması, vergitutmanın optimallaşdırılması, vergi yükünün azaldılması, çevik vergi inzibatçılığının yaradılması, vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi və elektron xidmətlərin genişləndirilməsi kimi prioritetləri əhatə edən mühüm islahatlarla yadda qaldı. 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklər sahibkarlıq sahəsində yeni, müasir çağırışlara uyğun fəaliyyət meyarlarının tətbiqinə geniş imkanlar açdı.**

### Vergi sistemində aparılan mühüm dəyişikliklər

Ötən il vergi sahəsində həyata keçirilən islahatlar çərçivəsində vergi yükü aşağı salındı, bir sıra fəaliyyət sahələrinə vergi güzəştləri tətbiq olundu. Vergi yükünün azaldılması məqsədilə kənd təsərrüfatı məhsullarının pərakəndə ticarət fəaliyyətində ƏDV-nin ticarət əlavəsindən hesablanması mexanizmi tətbiq olundu. Ödəmə qabiliyyətini itirmiş bankların sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək aktivlərin 2017-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edildi. İcbari tibbi sığorta və səhiyyə xidmətləri göstərən qurumların gəlirləri müddətsiz olaraq mənfəət vergisindən, buğdanın idxalı və satışı, unun və çörəyin istehsalı və satışı, quş ətinin satışı isə 3 il müddətinə ƏDV-dən azad olundu. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə sərhədlər müəyyən edildi.

Sahibkarların vergi yükünün azaldılması ilə yanaşı, onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin qaytarılması müddəti 45 gündən 20 günə endirildi. Vergi Məcəlləsinə edilmiş mühüm dəyişikliklərdən biri də elektron qaimə-fakturanın tətbiqidir. ƏDV ödəyiciləri üçün bu il aprelin 1-dən elektron qaimə-fakturanın tətbiqinə başlanıldı.

2017-ci ildə vergi sistemində ilk dəfə fiziki şəxslərin vergi öhdəliklərinin aylıq sabit vergi şəklində müəyyən edilməsini nəzərdə tutan qaydalar qüvvəyə mindi. Mühüm yeniliklərdən biri də ticarət festivalları zamanı satılan mallar, göstərilən xidmətlər üçün tutulan ƏDV-nin qaytarılması ilə bağlı idi. Bu siyasətə uyğun olaraq, il ərzində iki dəfə Bakı Ticarət (Shopping) festifalı keçirildi.

### Strateji yol xəritələri üzrə görülmüş işlər

2017-ci ildə «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»nə uyğun olaraq, Vergilər Nazirliyi qarşısında qoyulmuş tapşırıqların icrası davam etdirildi. 5 istiqamət üzrə əsas icraçı, 9 Strateji Yol Xəritəsində 34 istiqamətdə digər icraçı qismində müəyyən edilən nazirlik tərəfindən müvafiq Tədbirlər Planı hazırlandı, yol xəritələrində göstərilən hədəflərin icrası ilə bağlı məsul şəxslər təyin olundu. Tədbirlər Planında əsas istiqamətlər büdcə-fiskal siyasətin həyata keçirilməsi və ortamüddətli xərclər çərçivəsinin yaradılması, kiçik və orta sahibkarlığın inkişafında stimullaşdırıcı vasitələrin tətbiqi, biznesin asanlaşdırılması, yoxlamaların təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması, səmərəli vergi sisteminin təşviq edilməsi, xarici investisiya strategiyasının həyata keçirilməsi, statistika infrastrukturunun təkmilləşdirilməsi ilə bağlıdır.

Vergilər Nazirliyinin əsas icraçı olduğu istiqamətlərin hər bir altqrupu üzrə nəzərdə tutulan konkret hədəflər də müəyyən olunub. Vergi ilə bağlı strateji hədəflər kiçik və orta sahibkarlığın fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, sahibkarlıq sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi, kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və istehsalçıların bazarlara çıxışının asanlaşdırılması, daxili bazardakı ticarət üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi və digər istiqamətlərdən ibarətdir.

### «Şəffaf vergi partnyorluğu» layihəsi

Keçən il vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin daha şəffaf qurulması və yüksək səviyyəyə çatdırılması, nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığının sadələşdirilməsi ilə də əlamətdar oldu. Vergilər Nazirliyinin internet saytında şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri üçün «Yaşıl dəhliz» alt bölməsi yaradıldı və layihə barədə müxtəlif məlumatlar yerləşdirildi.

İl ərzində partnyor ödəyici statusunun alınması üçün vergi orqanları tərəfindən seçilən və ya vergi orqanlarına müraciət edən 841 vergi ödəyicisi barədə məlumatlar «Şəffaf vergi partnyoru» ekranına daxil edildi və meyarlara uyğunluğu müəyyənləşdirilən 480 (o cümlədən Bakı şəhəri üzrə 221) vergi ödəyicisinə «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildirişlər təqdim olundu. Vergi orqanları tərəfindən şəffaf vergi partnyorlarına «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildirişlərin təqdimat mərasimləri keçirildi.

Bununla yanaşı, 438 partnyor vergi ödəyicisinə ötən ilin yanvar-noyabr ayları ərzində müvafiq xidmətlər göstərildi. Bu kateqoriyaya aid olan ödəyicilərə bir sıra ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlər də təqdim edildi.

### Rəqəmsal Ticarət Qovşağı

2017-ci ildə Azərbaycanda elektron ticarətin innovativ platforması olan və e-kommersiya sahəsində dövlət-özəl sektor əməkdaşlığı üçün ən yaxşı model hesab edilən Rəqəmsal Ticarət Qovşağının (RTQ) yaradılması və fəaliyyətinin genişləndirilməsi istiqamətində zəruri addımlar atıldı. Qovşağın yaradılmasında iştirakçı dövlət orqanlarından biri olan Vergilər Nazirliyi tərəfindən ötən dövr ərzində xarici ölkələrlə elektron imza, o cümlədən «ASAN imza» sertifikatlarının qarşılıqlı tanınmasının təmin edilməsi istiqamətində mühüm işlər həyata keçirildi. Elektron imza, o cümlədən «ASAN imza» vasitəsilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin formalarının sadələşdirilməsi və xarici ölkə ərazilərində də elektron qaydada təsdiq edilməsi imkanının yaradılması ilə bağlı hüquqi-texniki məsələlər həll edilməkdədir. İkiqat vergitutmanın aradan qaldırılması haqqında saziş formalarının sadələşdirilməsi, xarici rezidentlərin elektron qaydada müraciət etməsi, bütün gəlir növləri üzrə güzəştlərin əvvəlcədən tətbiq edilməsi, formanın təsdiqinin gəlir ödəyən şəxsə birbaşa onlayn göndərilməsi imkanının yaradılması bu istiqamətdə ən mühüm tədbirlərdəndir. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza, o cümlədən «ASAN imza» sertifikatının verilməsi nəzərdə tutulur. Xarici ölkələrlə elektron imza, o cümlədən «ASAN imza» sertifikatlarının qarşılıqlı tanınmasının təmin edilməsi istiqamətində intensiv işlər aparılır. Nazirliyin «ASAN imza» üzrə Sertifikat Xidmət Mərkəzi tərəfindən elektron imzası olan şəxslərin Azərbaycanda elektron qeydiyyatının, yəni biznesə başlamanın elektronlaşması imkanının yaradılması ilə bağlı qanun layihəsi hazırlandı və hökumətə təqdim olundu. Layihəyə əsasən, gücləndirilmiş imzaların diplomatik nümayəndəliklər tərəfindən ölkədən kənarda verilməsi texniki cəhətdən təmin olunacaq, bununla da qeyri-rezident öz ölkəsində həmin sistem vasitəsilə elektron qeydiyyatdan keçərək Azərbaycanda müəssisə yarada biləcək. E-sertifikatın alınması təchizatçıdan sıfır faiz dərəcəsi ilə ƏDV tutulmasına, podratçı və subpodratçı şirkətlər tərəfindən sertifikatın alınması prosesinin elektronlaşdırılması vergi ödəyicilərinin vaxt və inzibati xərclərinin əhəmiyyətli şəkildə azalmasına gətirib çıxaracaq. Bu faktorlar biznesin təşviqinə, biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibi və imzalanmasına, xarici investorlar üzrə vergi və inzibati xərclərin azalmasına imkan verəcək.

### Yeni Tvinninq layihəsi

Ötən il vergi sistemində ən əlamətdar hadisələrdən biri Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti tərəfindən maliyyələşdirilən «Azərbaycan Respublikası Vergilər Nazirliyinə resurslardan optimal istifadə olunması və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsində dəstək» adlı yeni Tvinninq layihəsinə start verilməsi idi. Mart ayından icrasına başlanılan layihənin ümumi məqsədi Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinə, ümumilikdə əhaliyə göstərilən xidmətlərin səmərəliliyinin artırılmasıdır. Qarşıya xidmətlərə olan tələbatın müəyyən edilməsi, idarə olunması, davamlı inkişafın həyata keçirilməsi üçün Avropa İttifaqının qabaqcıl təcrübələrinin tətbiq edilməsi kimi vəzifələr qoyulmuşdu. Avropa İttifaqı ilə birgə 27 ay ərzində icra olunacaq layihə çərçivəsində vergi orqanı əməkdaşının Avropanın tətbiq etdiyi və yeni xidmət kanalları barədə məlumatlandırılması, təlimlərə cəlb olunması nəzərdə tutulub. Layihənin icrasından 4 komponent üzrə 5 mütləq nəticənin əldə olunması gözlənilir. Bunlara aiddir:

- vergi ödəyicilərinə xidmət prosesləri üzrə davamlı İnkişaf Proqramının reallaşdırılması;
- xidmətlərə olan tələbatın müəyyənləşdirilməsi və idarə edilməsi;
- xidmət kanallarının (xidmət mərkəzləri, Çağrı Mərkəzi, internet səhifəsi, mobil vasitələr, sosial media və s.) səmərəliliyinin artırılması;
- xidmət standartlarının qabaqcıl Avropa meyarlarına uyğunlaşdırılması;
- bütün kanallarda xidmətlərin təminatı və keyfiyyətinin yüksəldilməsi.

Layihənin icrası sayəsində ölkəmizdə vergi ödəyicilərinə göstərilən xidmətlərin ən müasir texnoloji səviyyədə həyata keçirilməsinin təmin olunacağı gözlənilir.

### Vergi islahatları beynəlxalq hesabatlarda...

Azərbaycanda qabaqcıl beynəlxalq təcrübənin tətbiqi sayəsində vergi inzibatçılığının təkmilləşdirilməsi, biznesin fəaliyyətinin yaxşılaşmasına səbəb olan islahatların aparılması nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da yüksək qiymətləndirildi. «Standard & Poor's», «Moody's Investors Services», «Fitch» və s. kimi beynəlxalq reytinq agentlikləri öz hesabatlarında Azərbaycanda biznesə başlama prosedurlarının sadələşdirildiyini, vergilərin ödənişi sahəsində elektron xidmətlərin genişləndiyini qeyd etdilər. Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən «Doing Business 2018» hesabatında Azərbaycan biznesin qeydiyyatı ilə bağlı ən yaxşı islahatçı ölkələrdən biri kimi qiymətləndirildi. Hesabatda respublikamızın «Biznesə başlama» (Starting business) və «Vergilərin ödənilməsi» (Paying taxes) indeksləri üzrə mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşıb ki, bu da sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı sahəsində həyata keçirilmiş tədbirlərin, biznes fəaliyyəti üzrə prosedurların sadələşdirilməsinin mühüm nəticəsidir.

**E.CƏFƏRLİ**

# İşsizlikdən Sığorta Fondu fəaliyyətə başlayır

**Yeni qəbul edilmiş «İşsizlikdən sığorta haqqında» Qanunda işsizlikdən sığorta məqsədilə işçinin əməkhaqqının 0,5%-i, sığortaedən tərəfindən isə hesablanmış əməyin ödənişi fondunun 0,5%-i sığorta haqqının ödənilməsi nəzərdə tutulur. Qanunda sığorta ödənişinin 3 növü - əsas sığorta ödənişi, sığorta ödənişinə əlavə və minimum sığorta ödənişi müəyyən edilib.**

Sığorta ödənişi işçinin sığorta stajından asılı olaraq onun itirilmiş orta aylıq əməkhaqqının məbləğinə müəyyən faiz dərəcələri tətbiq olunmaqla hesablanır. Başqa sözlə, işçinin sığorta stajı 3 ildən 5 ilə qədər olduqda onun itirilmiş orta aylıq əməkhaqqının məbləğinin 50%-i, sığorta stajı 5 ildən 10 ilə qədər olduqda 55%-i, sığorta stajı 10 ildən yuxarı olduqda 60%-i məbləğində işsizliyə görə aylıq sığorta ödənişi veriləcək.

Qeyd edək ki, bu ilin dövlət büdcəsində ilk dəfə olaraq «İşsizlikdən sığorta haqqında» Qanunun qüvvəyə minməsi ilə əlaqədar fəaliyyətə başlayacaq bu sistemdə dövlət büdcəsindən maliyyələşən təşkilatlar üzrə sığortaedənin payının maliyyələşdirilməsi ilə bağlı vəsait proqnozlaşdırılıb. Aparılmış hesablamalara uyğun olaraq, bu il üçün İşsizlikdən Sığorta Fondunun işəgötürən və işçi arasında paritet bölgü əsasında əmək haqlarının 1 faizi hesabı ilə müəyyənləşdirilən sığorta haqlarından formalaşan büdcə gəlirləri 89 mln. manat məbləğində, o cümlədən büdcə sektoru üzrə 35,4 milyon manat, qeyri-büdcə sektoru üzrə 53,6 milyon manat məbləğində proqnozlaşdırılır.

2018-ci ildə İşsizlikdən Sığorta Fondunun 89 mln. manat məbləğində nəzərdə tutulan xərclərinin 37,6%-ni və ya 33,5 mln. manatını işsizliyə görə sığorta ödənişləri təşkil edəcək ki, bu da həmin məqsədlər üçün nəzərdə tutulmuş vəsaitin həcmindən 1,9 dəfə çoxdur. Xərclərin 40,2%-i və ya 35,8 mln. manatı həcmində proqnozlaşdırılan özüməşğulluq tədbirləri hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən müvafiq sosial proqramın əhəmiyyətli şəkildə genişləndirilməsinə və il ərzində əlavə olaraq 8 minə yaxın ailənin bu proqramla əhatə edilməsinə şərait yaradacaq.

İşsizlikdən Sığorta Fondunun xərclərinin 6,8%-i və ya 6 milyon manatı peşə hazırlığı və əlavə təhsil, ictimai işlərin təşkili və digər aktiv əmək bazarı tədbirləri üçün nəzərdə tutulub ki, bu da 2017-ci illə müqayisədə 3,7% çoxdur. Məşğulluq orqanlarının saxlanılması xərcləri ötən illə müqayisədə 1,7 dəfə artaraq fondun xərclərinin 15,4%-ni və ya 13,7 mln. manatını təşkil edəcək.

# Yeni ilin ilk hərracı keçirilib

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən yanvarın 9-da keçirilən növbəti hərracda ümumilikdə 21 dövlət əmlakı özəlləşdirilib. Bunlardan 4-ü kiçik dövlət müəssisə və obyekti, 15-i qeyri-yaşayış sahəsi, 2-si isə nəqliyyat vasitəsidir. Bakı şəhəri üzrə 15 istifadəsiz qeyri-yaşayış sahəsi və 2 nəqliyyat vasitəsi, respublikanın digər şəhər və rayonları üzrə 4 kiçik dövlət müəssisəsi özəlləşdirilib.

Özəlləşdirmə prosesində kəmiyyət, obyektlərin əldəolunma prosedurunun sadələşdirilməsi, elektron hərracın geniş tətbiqi ilə hərraclarda keyfiyyət göstəricisi təmin olunur. Bütün bu üstünlüklər əmlak almaq istəyən investorların sayını çoxaltmaqla hərracı rəqabətli edir. Yeni ilin ilk hərracı da rəqabətli olub. Misal üçün: Bakının Nərimanov rayonunda yerləşən sahəsi 50 kvadratmetrə yaxın olan qeyri-yaşayış sahəsinin ilkin start qiyməti 15 min manat olduğu halda, ən son 31 min 150 manat təklif edilib.

Qeyd edək ki, hərracda özəlləşdirilən qeyri-yaşayış sahələrinin hamısı paytaxt ərazisindədir. Bakıda özəlləşdirilən qeyri-yaşayış obyektinin 4-ü Nərimanov, hər birində 3 olmaqla Səbail, Nəsimi və Suraxanı rayonlarında, qalanları isə müvafiq olaraq Nizami və Xətai rayonlarında yerləşir.

# İnvestisiya təşviqi siyasəti mühüm nəticələr verir

Azərbaycanda qeyri-neft məhsullarının istehsalı və ixracının stimullaşdırılması məqsədilə 2018-ci ildə ixracla məşğul olan sahibkarlara investisiya təşviqi sənədinin verilməsinin əhatə dairəsi daha da genişləndiriləcək. İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, 2016-cı ilin mart ayından indiyədək sahibkarlar 1,8 milyard manat həcmində 212 investisiya təşviqi sənədi əldə edib. İxrac təşviqi mexanizminin işə düşməsi sayəsində sahibkarların maliyyə imkanları yaxşılaşıb, ixracqabiliyyətli yeni məhsulların istehsalı və çeşidi yüksəlib. Nəticədə xarici ölkələrə qeyri-neft məhsullarının ixracı artıb. Azərbaycan xarici dövlətlərə 1,4 milyard dollara yaxın qeyri-neft məhsulları ixrac edib.

Dövlət bu sahədə əldə olunan müsbət dinamikanı nəzərə alaraq, təşviq vəsaiti ilə təmin olunan sahibkarlara öz dəstəyini davam etdirəcək. Cari ildə investisiyaların və ixracın təşviqi üzrə institusional çərçivənin ən qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilməsi, təşviq sənədinin verilmə müddətinin azaldılması və prosedurların daha da asanlaşdırılması, ixracatçılara dövlət dəstəyinin artırılması üçün yeni səmərəli mexanizmlərin yaradılması nəzərdə tutulur. Xarici ölkələrə ixrac edilən qeyri-neft məhsullarına ödənilən təşviq vəsaitinin məbləğinin artırılması da gözlənilir.

İnvestisiya təşviqi sənədi əldə etmiş sahibkarların 70%-dən çoxu regionlarda fəaliyyət göstərən subyektlərdir.

Hazırda ixrac təşviqi vəsaiti, əsasən, qida məhsullarına və bəzi sənaye mallarına görə ödənilir. Təşviq vəsaitinin məbləği Azərbaycan ərazisində istehsal olunan və istehsal prosesində istifadə edilən yerli komponentlərin və qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə ixrac olunan həmin məhsulların növündən asılı olaraq müəyyən edilir. Sahibkara ixrac olunan qeyri-neft mallarının məbləğinin təxminən 10-20%-i nisbətində vəsait ödənilir. Həmçinin, qeyri-neft məhsulları ixrac edən sahibkarlara malın gömrük bəyannamələrində göstərilən dəyərinin 3%-i dövlət vəsaiti hesabına onlara ödənilir ki, bu da onların xərclərinin azalmasına səbəb olur. Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq qaydalara əsasən, artıq Naftalan mazı, təbii dəridən geyim əşyaları və digər məmulatlar, ipək parçalar, əllə toxunmuş xalçalar, pambıq ipliyindən geyim əşyaları, ləvazimatları və digər hazır toxuculuq məmulatları, üstü təbii dəridən olan ayaqqabılar da ixrac təşviqi şamil olunan malların siyahısına daxil edilib. Bu, qeyri-neft sənayesinin istehsalı və ixracı ilə məşğul olan sahibkarları həvəsləndirmək məqsədi daşıyır.

İnvestisiya təşviqi ilə bağlı yürüdülən siyasətə əsasən, sahibkarlar müxtəlif güzəştlər, vergi-gömrük güzəştləri ilə də əhatə olunublar. Sahibkarların gəlirinin, o cümlədən hüquqi şəxslərin əldə etdikləri mənfəətin 50%-i 7 il müddətinə vergidən azad olunub. Bundan başqa, hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq əmlaka görə 7 il müddətinə əmlak vergisi, mülkiyyətlərində olan torpaq sahələrinə görə isə 7 il müddətinə torpaq vergisi ödəməkdən azad ediliblər. «Gömrük tarifi haqqında» Qanuna əsasən, investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə 7 il müddətinə gömrük rüsumlarından azad edilirlər. Sənaye texnoparklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı da 7 il ərzində gömrük rüsumlarından azad olunub. Ötən dövr ərzində həyata keçirilmiş bu siyasət qeyri-neft məhsullarının istehsalının 30%-ə yaxın artmasına səbəb olub. Proqnozlara görə, həmin müddət ərzində vergi və gömrük güzəştləri ilə əhatə olunan sahibkarların istehsal etdiyi məhsulların həcmi ən azı 2 dəfə artacaq, eyni zamanda ölkədə on minlərlə əlavə iş yeri yaradılacaq.

**ELBRUS**

# E-imza sertifikatları uğurla tətbiq edilir

«Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi»nin prioritetlərindən biri olan «Rəqəmsal ödənişlərin genişləndirilməsi» istiqamətində Mərkəzi Bank tərəfindən kompleks tədbirlər davam etdirilir.

Bankdan bildiriblər ki, məlumat mübadiləsi zamanı yüksək informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə Mərkəzi Bankda yaradılmış və 2014-cü ildə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən akkreditasiya edilmiş Bank Sertifikat Xidmətləri Mərkəzinin (BSXM) elektron imza alətlərinin yalnız Mərkəzi Bankın operatoru olduğu informasiya resurslarına, ödəniş və hesablaşmalar sistemlərinə deyil, həmçinin kredit təşkilatlarının müştərisi olan hüquqi və fiziki şəxslər üçün təklif olunan elektron bankçılıq və «müştəri-bank» xidmətlərində tətbiqinə başlanılıb.

Bank sektorunda müasir informasiya texnologiya infrastrukturunun yaradılması və rəqəmsal ödənişlərin genişləndirilməsi istiqamətində müvafiq tədbirlər Mərkəzi Bank tərəfindən davam etdirilir və yaxın zamanlarda digər bankların da öz müştəriləri ilə münasibətlərdə BSXM-in xidmətlərindən istifadəsi planlaşdırılır.

# Kiçik və orta sahibkarlıq üçün yeni yol xəritəsi

***Azərbaycan Prezidentinin kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında imzaladığı fərmana əsasən, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb.***

Agentlik kiçik və orta sahibkarlıq (KOS) subyektlərinə xidmətlər göstərəcək, dövlət orqanlarının bu sahədə xidmətlərini əlaqələndirəcək və tənzimlənməni həyata keçirəcək. İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu ilə fəaliyyət göstərəcək yeni agentliyin görəcəyi işləri şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin eksperti Namiq Şalbuzov bildirib ki, qurum kiçik və orta biznesin fəaliyyətində səmərəliliyin artırılması, koordinasiyanın güclənməsi, birgə layihələrin həyata keçirilməsi baxımından xeyli faydalı olacaq: «Bəzi KOS subyektləri fəaliyyətə qanunvericiliyin tələblərindən, biznes risklərindən, mövcud sektordakı vəziyyətdən xəbərsiz başlayırlar ki, bu da bəzən onların uğursuzluqla üzləşmələrinə səbəb olur. KOS subyektlərinin məsləhət xidmətlərinə marağının az olmasının səbəblərindən biri onların bu barədə məlumatsızlığı, digəri isə biznes məsləhət xidmətlərinə çıxışın mürəkkəbliyidir. Azərbaycanda hazırda müxtəlif dövlət orqanları öz səlahiyyətləri çərçivəsində KOS subyektlərinə müxtəlif xidmətlər (o cümlədən məsləhət xidməti, satış və digər istiqamətlər üzrə dəstək) göstərirlər. Beynəlxalq təcrübəyə əsasən, KOS subyektlərinə belə xidmətlərin vahid mərkəzdən həyata keçirilməsi onların həmin xidmətlərdən daha səmərəli istifadəsinə və inkişafına əlverişli imkan yaradır».

Onun sözlərinə görə, agentlik müxtəlif biznes assosiasiyaları ilə birlikdə bu sektora aid müəssisələrin problemlərinin mütəmadi təhlilini aparacaq, nəticələri müvafiq qurumlara çatdıracaq və problemlərin həlli yollarını axtaracaq. Bundan başqa, müvafiq dövlət qurumları və təhsil müəssisələri ilə əməkdaşlıq qurulacaq və tətbiqi elmlərin inkişafına xüsusi diqqət yetiriləcək. Agentliyin tərkibində təlim, məsləhət, informasiya, biznes inkubatoru, innovasiya mərkəzi, maliyyə sahəsində xidmətləri bir məkanda təklif edən «Kiçik və orta sahibkarlıq evi» yaradılacaq. Yeni qurumun fəaliyyəti «ASAN xidmət» mərkəzləri, habelə İqtisadiyyat Nazirliyinin regional bölmələri vasitəsilə həyata keçiriləcək.

Strateji yol xəritələrinə görə, 2020-ci ildə KOS-un ÜDM-də payı 15 faizə, məşğulluqda payı 20 faizə, qeyri-neft ixracındakı payı isə 10 faizə çatdırılmalıdır. N.Şalbuzovun fikrincə, KOS-un İnkişafı Agentliyi bu sahədə əsas rol oynayacaq. Agentlik vasitəsilə KOS-lara eyni zamanda bir neçə istiqamətdə xidmətlərin göstərilməsi planlaşdırılır ki, bunun nəticəsində idarəetmənin təkmilləşdiriləcəyi, paralelliyin aradan qaldırılacağı, bu sahəyə aid müəssisələrin fəaliyyətinin səmərəliliyinin artırılacağı gözlənilir.

**“Strateji Yol Xəritəsinə əsasən, səmərəli vergi sistemi ilə KOS-un fəaliyyətinin yaxşılaşdırılması, biznes mühitinin və tənzimləyici bazanın, eləcə də lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi, yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması nəzərdə tutulub**

***Əsas hədəflər***

İqtisadiyyat Nazirliyinin şöbə müdiri Elçin İbrahimov bildirib ki, Azərbaycanda KOS-un inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın sürətlənməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. KOS-un inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində müəyyənləşdirilən məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadə etmək istiqamətində hədəflər müəyyənləşdirilib.

2017-ci ildə KOS sektorunun inkişafı ilə bağlı qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq lisenziya sistemi təkmilləşdirilib, lisenziyaların və icazələrin elektron qaydada verilməsinə şərait yaradan «Lisenziyalar və icazələr» portalı istifadəyə verilib. Bununla yanaşı, aidiyyəti qurumlardan daxil olan təkliflər əsasında lisenziya və ya icazə verən orqanların lisenziya və ya icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin «Lisenziyalar və icazələr» portalı vasitəsilə həyata keçirilməsi üçün son müddətlər, «İnformasiya sistemlərinin «Lisenziyalar və icazələr» portalına inteqrasiyası üçün texniki tələblər», portala inteqrasiya edilməli informasiya sistemlərinin siyahısı və s. ilə bağlı Nazirlər Kabinetinin müvafiq qərar layihələri hazırlanıb.

Qarşıdakı ildə əsas fəaliyyət Azərbaycanda KOS subyektlərinə münasibətdə qanunvericilik bazasının təkmilləşdirilərək maliyyə və vergi siyasətinin stimullaşdırıcı təsirinin gücləndirilməsi, maliyyə resurslarına əlçatanlığın artırılması, texniki və informasiya bazasının gücləndirilməsi və ərazi üzrə optimal yerləşdirilməsi, daxili bazarın qorunması, bazar infrastrukturlarının inkişaf etdirilməsi, zəruri sənədlərin alınmasında «bir pəncərə» prinsipinin tətbiqi, bu sahəni təmsil edən subyektlər arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsi və s. kimi istiqamətlərə yönəldiləcəkdir.

***KOS və vergi islahatları***

Kiçik və orta sahibkarlığın inkişafı vergi islahatlarının da başlıca istiqamətlərindəın biridir. «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»ndə KOS-un fəaliyyətinin stimullaşdırılması məqsədilə Vergilər Nazirliyi qarşısında bir sıra mühüm vəzifələr qoyulub. Strateji Yol Xəritəsinə əsasən, səmərəli vergi sistemi ilə KOS-un fəaliyyətinin yaxşılaşdırılması, biznes mühitinin və tənzimləyici bazanın, eləcə də lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi, yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması nəzərdə tutulub.

Vergilər Nazirliyi 2017-ci ildə KOS fəaliyyətinin stimullaşdırılmasını nəzərdə tutan bir sıra tədbirlər həyata keçirib, qanunvericiliyə müvafiq dəyişikliklər edilib, səmərəli vergi rejimi təmin olunub. Yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması üzrə «KOS» kateqoriyasına aid olan vergi ödəyicilərinin elektron informasiya sistemlərində fərqləndirilməsi üçün «iri, orta və kiçik sahibkar meyarları» nəzərə alınmaqla «KOS» abbreviaturasının strukturu və elektron informasiya sistemlərində əks etdirilməsi ilə bağlı layihə hazırlanıb.

Strateji Yol Xəritəsinə uyğun olaraq, səmərəli vergi sisteminin tətbiqi və KOS sahəsində stimullaşdırıcı vergi islahatlarının davamı ilə bağlı İllik Plana əsasən, hüquqi şəxslərin dövlət qeydiyyatının asanlaşdırılması, xarici investisiyalı müəssisələrin elektron qeydiyyatı ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi, yeni qeydiyyatdan keçən vergi ödəyicilərinin fəaliyyət istiqamətləri üzrə məlumatlandırma mexanizmlərinin işlənib hazırlanması nəzərdə tutulur. Vergi ödəyicilərinə xidmət sahəsində tərtib olunmuş planlar beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsini və əhatə dairəsinin genişləndirilməsini, vergi bəyannamələrinin internet vergi idarəsi vasitəsilə təqdim edilməsi imkanının yaradılmasını, avtomatlaşdırılmış məlumat bazası əsasında bəyannamələrin vergi orqanı tərəfindən hazırlanmasını əhatə edir. KOS sahəsində stimullaşdırıcı vergi islahatları 2018-2020-ci illərdə də davam etdiriləcək.

**Elbrus CƏFƏRLİ**

# «ABAD»ın əhatə dairəsi genişlənir

Son illərdə ölkəmizdə kiçik ailə biznesinin və təsərrüfatlarının inkişafını təşviq etmək və regional inkişafa töhfə vermək məqsədilə icra olunan layihələr arasında Azərbaycan Prezidenti tərəfindən irəli sürülən və 2016-cı il sentyabrın 23-də yaradılan publik hüquqi şəxs - «ABAD» (Ailə Biznesinə Asan Dəstək) layihəsinin xüsusi yeri var.

İqtisadçı ekspert Vüqar Bayramovun sözlərinə görə, «ABAD» yeni sosial innovasiya konsepsiyasıdır və məqsədi kiçik və orta sahibkarlığın inkişafına, məşğulluq səviyyəsinin artırılmasına, rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına, regionların və kənd təsərrüfatının inkişafına dəstək verməkdir. Qeyri-kommersiya və sosialyönümlü qurum olan «ABAD» yeganə ictimai təşkilatdır ki, ailə təsərrüfatının «ideyadan rəflərə» daşınmasına kömək edir, istehsalın planlaşdırılmasından məhsulların satışına qədər olan bütün biznes prosesinin idarə olunmasını həyata keçirir, yığılan gəlirin ailələrə köçürülməsini təmin edir. Ailələr öz bizneslərini qurmaq üçün ictimai və özəl qurumlarla birbaşa qarşılıqlı əlaqə saxlamırlar. Bu funksiya «ABAD» tərəfindən həyata keçirilir. «ABAD» - ailələr üçün bacarıqların inkişaf etdirilməsi təlimləri təşkil edir, «vahid pəncərə» prinsipindən istifadə edərək ailə məhsullarını sertifikatlaşdırır. Layihənin mütəxəssisləri ailələrə bazaryönümlü qablaşdırma həlləri və məhsulların dizaynı ilə bağlı kömək göstərirlər, supermarket şəbəkəsində ailə məhsullarının satışını, habelə onların daşınması və saxlanmasını idarə edirlər. Layihənin icrası KOS-un inkişafı ilə bağlı investisiya mühitinin yaxşılaşdırılması baxımından çox vacibdir. Sahibkarların üzləşdiyi problemlərin həlli baxımından da belə bir qurumun yaradılmasına ehtiyac var idi. Çünki «ABAD» həm kiçik və orta müəssisələrin maliyyə resurslarının genişləndirilməsinə, həm də bazarlara çıxış imkanlarının artırılmasına şərait yaradır.

**«ABAD» yeganə ictimai təşkilatdır ki, ailə təsərrüfatının «ideyadan rəflərə» daşınmasına kömək edir, istehsalın planlaşdırılmasından məhsulların satışına qədər olan bütün biznes prosesinin idarə olunmasını həyata keçirir**

Məlum məsələdir ki, ölkədə ciddi iqtisadi inkişafı genişləndirmək üçün sahibkarlara maksimum əlverişli şərait yaradılmalıdır. Ümumi iqtisadi artımda əsas payı kiçik və orta ölçülü sahibkarlar verdiyi üçün həlledici rolu da məhz xırda sahibkarlıq fəaliyyəti təşkil edir. Bunu inkişaf etmiş ölkələrin real iqtisadi vəziyyətlərindən, habelə təcrübələrindən əyani şəkildə görmək mümkündür. Həmin ölkələrdə dövlət büdcəsinin gəlirlərinin çox hissəsi məhz kiçik və orta sahibkarlar tərəfindən təmin olunur. Ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunu artırmaq sahəsində əlavə imkanlar yaratmaq məqsədilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində «ABAD» publik hüquqi şəxsin yaradılması da çox böyük əhəmiyyətə malikdir. Bu qurumların birgə fəaliyyəti nəticəsində tezliklə ölkənin bütün ərazilərində kompleks inkişaf özünü göstərəcək, regionlarda KOS-un iqtisadiyyatdakı rolu artacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov «ABAD» publik hüquqi şəxsi tərəfindən dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək layihələrinin həyata keçirildiyini qeyd edərək bildirib ki, bu günə kimi ölkənin 17 regionundan olan 178 ailə, fərdi və kiçik sahibkarlıq subyektinə dəstək göstərilib və bu tədbirlər indi də davam etdirilir.

**FƏXRİYYƏ**

# «Güzəştli mənzillər» dövrü yaxınlaşır

**Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən «MİDA» Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurasının iclasında 2017-ci il ərzində qurumun gördüyü işlərin yekunlarına dair hesabat dinlənilmişdir.**

Qeyd olunmuşdur ki, MİDA-nın birinci layihəsi olan və 1843 ailəni mənzil ilə təmin edəcək Yasamal Yaşayış Kompleksinin tikintisində əhəmiyyətli irəliləyiş əldə edilmişdir. 29 yaşayış binasından ibarət olacaq kompleksin ilk 12 yaşayış binasının və 960 şagird yerlik ümumtəhsil məktəb binasının tikinti-quraşdırma işləri artıq başa çatdırılmış, tamamlama-bəzək işləri davam etdirilməkdədir. Paralel olaraq digər çoxmənzilli yaşayış binalarının hər birinin tikintisi sürətlə davam etdirilir, həmçinin ərazinin müvafiq mühəndis-kommunikasiya sistemi ilə təchiz edilməsi işləri həyata keçirilir. Bununla yanaşı, «Elektron hökumət» portalında yaradılmış «Güzəştli mənzil» sistemində güzəştlə mənzil əldə etmək hüququna malik vətəndaşların müraciətlərinin qeydiyyatı davam etdirilir. İndiyədək bu sistem vasitəsilə 7500-dən çox vətəndaşın güzəştlə mənzil əldə etmək hüququ təsdiqlənib.

Bildirilmişdir ki, «Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi» ilə müəyyən edilmiş hədəflər rəhbər tutularaq, dövlət büdcəsindən asılılığı minimuma endirmək məqsədilə özəl investisiya şirkətləri ilə səmərəli əməkdaşlığın qurulmasına nail olunmuşdur. Yasamal Yaşayış Kompleksi layihəsinin reallaşdırılması ilə bağlı il ərzində keçirilmiş 3 investisiya müsabiqəsi nəticəsində təşkil edilmiş dövlət-özəl tərəfdaşlığı çərçivəsində 18 milyon manata yaxın özəl sərmayə cəlb olunmuşdur. Bu vəsait 3 yaşayış binasının tikintisinə, ərazidə telekommunikasiya infrastrukturunun yaradılmasına, habelə ticarət mərkəzinin layihələndirilməsi, tikintisi və idarə olunmasına yönləndiriləcək.

2017-ci ilin daha bir önəmli nailiyyəti Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi olan Hövsan Yaşayış Kompleksinin tikintisinin başlanmasıdır. Ötən il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən bu Kompleksin ilk 7 mərtəbəli binasının təməli qoyulmuşdur. Bakı şəhərinin Suraxanı rayonunda 20 hektarlıq ərazidə reallaşdırılacaq layihə çərçivəsində 3002 mənzilin inşa olunub istifadəyə verilməsi nəzərdə tutulur.

İclas çərçivəsində «MİDA» MMC-nin 2018-ci il üçün perspektiv inkişaf strategiyası müzakirə edilmiş, qurumun Daxili audit şöbəsinin hesabatı dinlənilmiş, habelə «Güzəştli mənzil» elektron sisteminin səmərəliliyinin artırılması və yeni satış modulunun istifadəyə verilməsi məqsədilə müvafiq təlimatlar və digər aidiyyəti sənədlər təsdiq olunmuşdur.

# Dünya iqtisadiyyatının sensasiyası

**2017-ci ilin ən yaddaqalan hadisələrindən biri kriptovalyutaların, xüsusilə də bitkoinin dəyərinin artması, müxtəlif ölkələrdə müxtəlif şirkətlərin, dövlət strukturlarının bu valyutaya fərqli münasibəti oldu. Mövzunu «TuranBank» ASC-nin İnformasiya Texnologiyaları Departamentinin baş direktoru Bəxtiyar Məmmədov şərh edir.**

Əvvəlcə bitkoinin tarixçəsinə qısaca nəzər salaq. Bitkoin valyutası 2008-ci ildə yaradılmış, ilk bitkoin tranzaksiyası isə 2009-cu il yanvarın 12-də Satoşi Nakamoto adlı şəxs və ya qrup tərəfindən həyata keçirilmişdir. O, bitkoinin ilk istifadəçilərindən olan Harold Tomas Finn adlı amerikalı proqramçıya 10 bitkoin göndərmişdi. Satoşi Nakamoto ləqəbinin kimə aid olması, onun şəxs, ya da qrup olması hələ də bəlli deyil. Harold Tomas Finn isə o zaman Amerika Birləşmiş Ştatlarında PGP şirkətinin aparıcı proqramçılarından idi, kriptoqrafiyaya marağı onu bitkoinin ilk istifadəçilərindən olmağa sövq etmişdi. İlk real valyuta müqabilində bitkoin alınması da 2009-cu ildə baş verdi: birinci dəfə 5.02 dollar qarşılığında 5050 bitkoin satılmışdı. Bitkoin vasitəsilə ilk mal alışı isə 2010-cu ildə həyata keçirildi: amerikalı Laslo Haneç 10.000 bitkoinə iki ədəd pizza almışdı. O, iki pizza üçün 25 dollar əvəzinə 10 min bitkoin ödəmişdi. Əgər həmin bitkoinləri saxlasaydı, indi 100 milyon dolların sahibi idi...

Heç kimin ağlına gəlməzdi ki, qısa müddətdə bitkoin astronomik dəyər qazanacaq və 2013-cü ildə 1000 dolları keçəcək. 2017-ci ildə isə maksimal dəyər qeydə alınacaq: 20.000 dollara yaxınlaşacaq. Ötən il bitkoinin dəyərinin sürətlə qalxması dünyada kriptovalyutalara marağı hədsiz dərəcədə artırdı. Aparıcı dövlətlər, dünya səviyyəsində tanınmış analitiklər bitkoini təhlil etməyə başladılar. Müxtəlif dövlətlər bu valyuta ilə bağlı qanunvericilik normaları müəyyən etdilər.

Kriptovalyutanın tanınması barədə qanun ilk dəfə 1 aprel 2017-ci ildə Yaponiyada qəbul edildi. Bunun ardınca bir neçə yapon şirkəti bitkoin vasitəsilə ödənişlərin qəbul edildiyini açıqladı. 2017-ci ilin aprel ayında Rusiyada maliyyə nazirinin müavini 2018-ci ildə kriptovalyutanın leqallaşdırıla biləcəyini açıqlasa da, Mərkəzi Bankın məsul şəxsləri bunun əleyhinə olduqlarını bildirdilər. Lakin Rusiya Prezidentinin məsləhətçisi Sergey Qlaznev kriptovalyutalardan Rusiyaya qarşı qoyulmuş sanksiyalar baryerini aşmaqda istifadə edilə bilən bir alət olduğunu qeyd etdi. Buna baxmayaraq, 2017-ci il ərzində Rusiyada kriptovalyutalarla bağlı qanun layihəsinin hazırlanması başa çatdırılmadı. Ukrayna deputatları keçən ilin oktyabrında Ali Radaya kriptovalyutalarla bağlı qanun layihəsi təqdim etdilər. Belarus hökuməti isə dekabrın 22-də kriptovalyutanın leqal hesab edilməsi ilə bağlı qanun qəbul etdi.




2017-ci il sentyabrın 13-də ABŞ-ın «JP Morqan» bankının baş direktoru, dünya iqtisadiyyatında kifayət qədər tanınmış iqtisadçı Ceyms Deymon bütün əməkdaşlarına kriptovalyuta ticarətini qadağan etdiyini və bu valyutaların hər birində maliyyə piramidasının əlamətlərini gördüyünü bildirdi. Daha sonra isə Çin ölkədə olan bütün kriptovalyuta birjalarının fəaliyyətinin dayandırılmasına qərar verdi. Cənubi Koreya hökumətinin açıqlamasında keçən il 1300 faizdən artıq dəyər qazanmış virtual valyuta ilə aparılan alğı-satqı əməliyyatlarının azaldılması üçün tədbirlər görülməsinin zəruriliyi vurğulanmışdı. Məhdudlaşdırıcı normalara kriptovalyuta ilə anonim hesabların açılmasının qadağan edilməsi və hökumətə rəqəmsal valyuta birjalarını bağlamaq hüququnun verilməsi də daxildir. Hökumətin bu addımından sonra bitkoinin kursu dərhal 10 faizdən çox azaldı.

Amerika Birləşmiş Ştatlarında kriptovalyutalarla hesablaşmalar məsələsində məhkəmələr, nazirliklər, digər təşkilatlar buna virtual pul, yaxud hər hansı əmlak kimi yanaşırlar. 2014-cü ildə Milli Gəlirlər Departamenti kriptovalyutalardan vergi tutulması normalarını müəyyən etmiş və bu valyutalara dəyəri olan bir əmlak kimi yanaşmışdır. Avropa Məhkəməsi 2015-ci ildə bitkoin tranzaksiyaları üçün ƏDV-nin tətbiq edilməməsi barədə qərar çıxarmışdır, məhkəmə ƏDV-nin yalnız mal alışı və xidmətlərin göstərilməsi zamanı tətbiq edilməli olduğunu açıqlamışdır. Azərbaycanda isə kriptovalyutalardan istifadəni tənzimləyən hər hansı qanunvericilik normaları hələlik müəyyən edilməmişdir.

...Dünyada bir çox tanınmış analitikləri düşündürən suallardan biri də bitkoinin gələcəyidir. Bu barədə qəti hökm vermək çətindir. Bitkoin milyon dollarlara qədər dəyər də qazana bilər, sıfıradək enə də bilər. Onun dəyərinin necə dəyişəcəyini, tətbiq sferasının genişlənəcəyini, ya da daralacağını, inkişaf edəcəyini, yaxud tənəzzülə uğrayacağını yalnız zaman müəyyən edəcək.

***Hazırladı:***
**F. İKRAMQIZI**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Əlavə dəyər vergisi

**Xarici internet saytlarından alınan mallara görə ödənilən vəsaitdən bank tərəfindən ƏDV hesablanırmı?**

Vergi Məcəlləsinin (VM) 169.1-ci maddəsinə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində həmin Məcəllənin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin, sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi), Məcəllənin XI fəslinin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi bu maddəyə uyğun qaydada vergiyə cəlb olunur.

Məcəllənin 169.1-ci maddəsi tətbiq edildikdə vergi agenti qeyri-rezidentə ödənməli olan məbləğə ƏDV hesablamalı və ödəməlidir. Verginin məbləği Məcəllənin 173.1-ci maddəsinin müddəalarına uyğun olaraq, vergi dərəcəsinin qeyri-rezidentə ödənməli olan məbləğə (ƏDV nəzərə alınmadan) tətbiq edilməsi yolu ilə müəyyənləşdirilir (VM, maddə 169.3).

***Qeyd olunan müddəalara əsasən:***

Vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən xarici saytlardan elektron ticarət qaydasında malların alınmasına görə aparılan ödənişlərdən banklar tərəfindən alıcının hesabından ƏDV tutulmur.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin ÜDM-ə təsiri 2020-ci ildə **200 milyon** manat olacaq.
- 2016-cı il ilə müqayisədə 2017-ci ildə ölkəmizə gələn xarici vətəndaşların sayı **449.215** nəfər artaraq **2.691.998** nəfər olub ki, bu da indiyə qədər müşahidə edilmiş ən yüksək göstəricidir.
- 2017-ci ilin dekabrına olan vəziyyətə görə, «Transanadolu» boru kəmərinin (TANAP) tikintisi çərçivəsində **96,6%** irəliləyiş olub.
- Cari ildə Gürcüstan təbii qaza olan ehtiyacının **2 milyard 689 milyon** kubmetrini Azərbaycandan almaq niyyətindədir.
- Azərbaycan Respublikası Dövlət Neft Fondu 2017-ci ildəki valyuta hərraclarında ümumilikdə **3 milyard 598 milyon** dollar satıb.
- «Kredit bürolarının fəaliyyətinin tənzimlənməsi və nəzarəti qaydası»na əsasən, kredit bürosunun nizamnamə kapitalı minimum **2 milyon** manat səviyyəsində müəyyən edilib.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Azərbaycan xarici ölkələrə qiymətli metallar ixrac edir

«AzerGold» QSC-nin mətbuat xidmətindən verilən məlumata görə, ötən ilin aprel-dekabr ayları ərzində həyata keçirilmiş ixrac əməliyyatları üzrə 60 min 552 unsiya qızıl və 86 min 806 unsiya gümüş ixrac edilib, nəticədə ölkə iqtisadiyyatına 121 milyon manatdan çox gəlir daxil olub. Qiymətli metalların dünya bazarında satışının təşkili üçün beynəlxalq affinaj şirkətlərinin tələb etdiyi KYC («Know Your Customer») və təhlil («due diligence») prosedurlarını uğurla keçərək «AzerGold» QSC cari ilin aprel ayında İsveçrənin məşhur «Argor-Heraeus» şirkəti ilə qiymətli metalların saflaşdırılmasına dair müqavilə imzalayıb.



2016-cı ilin iyul ayında fəaliyyətə başlayan «AzerGold» Daşkəsən rayonu ərazisindəki Çovdar filiz emalı sahəsində müxtəlif təyinatlı təmir-tikinti işləri sayəsində yatağın fəaliyyəti bərpa edilib, optimallaşdırılıb, istehsalat 24 saatlıq iş rejiminə keçirilib, hasilat işlərinə start verilib. Ərazidə ekoloji tarazlığın qorunması üçün 6 mindən çox ağac və kol əkilib, digər işlər görülüb. Çovdar mədənində işlərin düzgün və səmərəli aparılması, insanların əmək şəraitinin yaxşılaşdırılması üçün bütün lazımi işlər həyata keçirilib və infrastruktur yaradılıb. 2020-ci ildə yatağın yerüstü (oksid) mərhələsinin istismarı başa çatandan sonra 2021-ci ildə hasilata verilməsi planlaşdırılan yeraltı (sulfid) mərhələsinin hasilatına dair texniki-iqtisadi əsaslandırma sənədinin hazırlanması üzrə beynəlxalq məsləhətçi şirkət ilə əməkdaşlıq edilir.

«AzerGold» QSC-nin strateji hədəfi Azərbaycanda əlvan metal sənayesinin dayanıqlı və davamlı inkişafını təmin etməkdir. Bu məqsədlə Balakən rayonu ərazisində yerləşən və mis, sink, gümüş, qızıl, qurğuşun ehtiyatlarının həcminə görə nəinki Azərbaycan, hətta Avropa üçün böyük strateji əhəmiyyətə malik Filizçay polimetal yatağı üzrə ilkin iqtisadi qiymətləndirmə sənədi nüfuzlu beynəlxalq məsləhətçi şirkət tərəfindən hazırlanmaqdadır. Növbəti illərdə metallurji, laborator, geotexniki, hidroloji və ekoloji tədqiqatların aparılması planlaşdırılır. Bundan başqa, Balakən rayonu ərazisində yerləşən digər yataqda - Mazımçayda ehtiyatların hesablanması üçün buruq-qazma işləri həyata keçirilib.

Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Göydağ-Əlincə filiz qovşağının Ortakənd sahəsində isə kompleks geofiziki tədqiqatlar aparılıb və yaxın gələcəkdə buruq-qazma işlərinin icrası və ehtiyatların hesablanması nəzərdə tutulur.

Daşkəsən-Göygöl ərazilərində filizsaxlayan süxurlardan götürülmüş sınaq nümunələri beynəlxalq sertifikatlaşdırılmış laboratoriyada analiz olunur və analizlərin nəticələrinə uyğun kəşfiyyat işlərinin planı hazırlanır. Bu istiqamətdə növbəti illərdə də geoloji tədqiqatlar davam etdiriləcək.

300-ə yaxın insanın daimi işlə təmin olunduğu «AzerGold» QSC-nin sosial məsuliyyət üzrə siyasətinin reallaşdırılması, o cümlədən yerli icmaların ehtiyaclarının öyrənilməsi və ödənilməsi üçün Korporativ Sosial Məsuliyyət Komitəsi yaradılıb. Eyni zamanda, təcrübə mübadiləsinin aparılması və kadr potensialının formalaşdırılması üçün qurum elm və təhsil ocaqları ilə əməkdaşlıq etməkdədir. Qısa müddət ərzində əldə olunan yüksək göstəricilər «AzerGold» QSC-yə qeyri-neft sektorunun ixracında lider mövqeləri qazandırıb.

> “ **Ötən ilin aprel-dekabr ayları ərzində həyata keçirilmiş ixrac əməliyyatları üzrə 60 min 552 unsiya qızıl və 86 min 806 unsiya gümüş ixrac edilib, nəticədə ölkə iqtisadiyyatına 121 milyon manatdan çox gəlir daxil olub**

# İnvestorlar Azərbaycana 3,6 mlrd. dollar bonus ödəyəcəklər

«Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» (AÇG) yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında» düzəliş edilmiş və yenidən tərtib olunmuş Saziş üzrə 2018-2025-ci illər ərzində ümumilikdə 3,6 milyard ABŞ dolları məbləğində vəsaitin ödənilməsi nəzərdə tutulur. Bonus məbləğinin 1-ci hissəsinin - 450 milyon ABŞ dolları və ya 774 milyon manatının 2018-ci il yanvarın 31-də ödənilməsi nəzərdə tutulur.

Xatırladaq ki, ötən il sentyabrın 14-də Azərbaycan hökuməti və SOCAR beynəlxalq tərəfdaş şirkətlərlə birlikdə AÇG-nin birgə işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş Sazişi imzalayıblar. Saziş Milli Məclis tərəfindən oktyabrın 31-də ratifikasiya olunub. «Yeni Əsrin Müqaviləsi» üzrə AÇG neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılıb. Müqavilədə SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılıb, Azərbaycana çatacaq mənfəət neftinin nisbəti isə 75 faiz təşkil edəcək. SOCAR-ın «AzAÇG» şirkəti podratçı kimi müqavilənin icrasında iştirak edəcək.

«Əsrin müqaviləsi» çərçivəsində indiyədək yataqdan 436 milyon ton neft hasil edilib və hesablamalara əsasən, yataqda hələ təxminən 500 milyon ton neft ehtiyatı var.

# Güzəştli kreditlərin böyük hissəsi regionların payına düşür

Sahibkarlığın inkişafına dövlət dəstəyini həyata keçirən Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) güzəştli kreditləri hesabına ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin investisiya layihələri maliyyələşdirilir. Fondun vəsaitlərindən ətlik və südlük istiqamətli cins iribuynuzlu heyvandarlıq komplekslərinin, logistika və «yaşıl market» mərkəzlərinin, aqroparkların, müasir tələblərə cavab verən meyvə-tərəvəz məhsullarının emalı müəssisələrinin, iri fermer təsərrüfatlarının, qarışıq yem istehsalı müəssisələrinin, müasir istixana komplekslərinin, intensiv bağçılıq və ya tingçilik təsərrüfatlarının, müasir çörək istehsalı müəssisələrinin, digər sənaye müəssisələrinin yaradılması və kiçik sahibkarlığın inkişafı məqsədləri üçün istifadə edilir.




İnvestisiya layihələrinin maliyyələşdirilməsi ilə əlaqədar SKMF tərəfindən «Elektron idarəetmə sistemi» hazırlanaraq sahibkarların istifadəsinə verilmişdir. Bu sistem sahibkarların elektron müraciətlərinə müvəkkil kredit təşkilatları tərəfindən baxılaraq daha tez münasibət bildirmələrinə və rəsmi cavab vermələrinə şərait yaradır, layihələrin maliyyələşməsi prosesinə operativ nəzarət imkanlarını artırır, sənəd dövriyyəsinin daha sürətli və təhlükəsiz həyata keçirilməsini təmin edir. Bunlardan əlavə, sistem sahibkarların investisiya tələbatını müəyyənləşdirməyə, layihələrin maliyyələşdirilməsi prosesinin daha da optimallaşdırılmasına və onların güzəştli kreditlərə çıxış imkanının asanlaşmasına kömək edir.

Fond tərəfindən sahibkarlığın inkişafını stimullaşdırmaq məqsədilə regionlarda və Bakı şəhərinin qəsəbələrində mütəmadi olaraq işgüzar forumlar keçirilir, sahibkarlara güzəştli kreditlərdən istifadə mexanizmi izah olunur, investisiya layihələrinin hazırlanmasına və təqdim olunmasına dair treninq və tədbir keçirilən inzibati rayonun iqtisadi potensialına uyğun olaraq maliyyələşdirilməsi nəzərdə tutulan investisiya layihələri təqdim edilir. Sahibkarlarla müvəkkil kredit təşkilatlarının səlahiyyətli nümayəndələrinin işgüzar münasibətlər qurması və kreditin alınması ilə bağlı məsələlər müzakirə edilir, onların təklifləri öyrənilir, prioritet sahələr üzrə hazırlanmış nümunəvi investisiya layihələri və güzəştli kreditlər təqdim olunur.

Ötən il 1953 sahibkarlıq subyektinin ümumi dəyəri 635,6 milyon manat olan investisiya layihəsinin maliyyələşdirilməsinə 146 milyon manat həcmində güzəştli kredit verilib və bu, ölkədə 6600-dək yeni iş yerinin açılmasına imkan yaradıb. Kreditlərin 65%-i regionların, 35%-i isə Bakı şəhərinin və qəsəbələrinin payına düşür. Güzəştli kreditlərin 67,6%-i aqrar sektorun, 32,4%-i müxtəlif sənaye məhsullarının istehsalı və emalı sahələrinin inkişafına yönəldilib. 2017-ci ildə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilən 60 müəssisə istifadəyə verilib, 40 müəssisə üzrə tikinti-quraşdırma işləri davam etdirilir.

> Ötən il 1953 sahibkarlıq subyektinin ümumi dəyəri 635,6 milyon manat olan investisiya layihəsinin maliyyələşdirilməsinə 146 milyon manat həcmində güzəştli kredit verilib və bu, ölkədə 6600-dək yeni iş yerinin açılmasına imkan yaradıb

**AYTƏN**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin yanvar və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin yanvar və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə suallarınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# 2018-ci il üçün makroiqtisadi proqnozlar

Azərbaycanda ortamüddətli makroiqtisadi siyasətin başlıca prioriteti makroiqtisadi sabitliyi möhkəmləndirmək və dayanıqlı iqtisadi artıma nail olmaqdır. Bunun reallaşdırılması isə rasional əlaqələndirilmiş makroiqtisadi çərçivə və proqnozları effektiv idarə edən pul siyasəti rejimi vasitəsilə mümkündür.

### Pul siyasətinin əsas istiqamətləri

Mərkəzi Bankın 2018-ci il və ortamüddətli dövr üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatında qeyd olunur ki, bu sahədə başlıca hədəf makroiqtisadi sabitliyin dayanıqlığının gücləndirilməsi olacaqdır. 2018-ci il və ortamüddətli dövr Azərbaycanda yeni iqtisadi inkişaf modelinə keçid və dayanıqlı iqtisadi artıma nail olmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Bu dövrdə makroiqtisadi və maliyyə sabitliyinin qorunması dayanıqlı iqtisadi artım və gözləntilərin effektiv idarə olunması üçün baza şərti olacaqdır. Mərkəzi Bank, mandatına uyğun olaraq, özünün stabilizasiya xarakterli balanslı pul siyasəti ilə əldə olunmuş makroiqtisadi və maliyyə sabitliyinin dayanıqlığının təmin edilməsinə zəruri dəstək verəcək, hökumətlə birlikdə öz siyasətini inflyasiyanın birrəqəmli səviyyədə saxlanılmasına yönəldəcək, inflyasiyaya təsir imkanlarını artırmaq üçün pul siyasətinin strateji və əməliyyat çərçivəsini daha da təkmilləşdirəcəkdir. Bu məqsədlə növbəti ildə və ortamüddətli dövrdə yeni makroiqtisadi və maliyyə sabitliyi platformasının formalaşdırılmasını təmin edən radikal islahatlar həyata keçiriləcəkdir.

### Makroiqtisadi proqnozlar nəzərə alınacaq

Sənədə əsasən, makroiqtisadi sabitlik çərçivəsinin dayanıqlığının gücləndirilməsi 2018-ci ildə Mərkəzi Bankın pul siyasətinin başlıca məqsədini təşkil edəcək, inflyasiya gözləntilərinin azaldılmasına yönəldilmiş siyasət davam etdiriləcəkdir. Mərkəzi Bank 2018-ci ildə də özünün pul siyasəti hədəflərini makroiqtisadi proqnozlar nəzərə alınmaqla formalaşdırmışdır.

Müxtəlif ssenarilər üzrə aparılan simulyasiyalara görə, Azərbaycanın başlıca makroiqtisadi göstəriciləri üzrə 2017-ci ildə başlamış pozitiv dinamikanın növbəti ildə də davam edəcəyi gözlənilir. Hökumətin son proqnozlarına əsasən, 2018-ci ildə real artım tempi ümumi ÜDM üzrə 1,5%, qeyri-neft sektoru üzrə isə 2,9% təşkil edəcək. Dövlət tələbi iqtisadi artımın əsas amillərindən biri olaraq qalacaqdır. 2018-ci ildə dövlət büdcəsi xərclərinin əsasən investisiya xərcləri hesabına artırılacağı nəzərdə tutulur ki, bu da qeyri-neft sektorunda artımı dəstəkləyəcəkdir.

Pul təklifinin həcmi iqtisadi artım və inflyasiya proqnozları, habelə maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tənzimlənəcəkdir. Bununla belə, ödənişlərin fasiləsizliyini təmin etmək, iqtisadiyyatın zəruri həcmdə likvidliyə olan tələbatını ödəmək bundan sonra da diqqətdə saxlanacaqdır.

Beləliklə, Mərkəzi Bank, hökumətin birrəqəmli inflyasiya proqnozunu da nəzərə almaqla, sərəncamındakı alət və mexanizmlərdən istifadə edərək, 2018-ci ildə inflyasiyanı 6-8% civarında saxlamağa çalışacaq.

### Ortamüddətli dövrə nəzər salanda...

Ortamüddətli dövrdə qarşıda duran başlıca vəzifə makroiqtisadi sabitliyin dayanıqlığının gücləndirilməsi, bu əsasda sürətli və inklüziv iqtisadi artıma nail olunmasıdır. Ortamüddətli dövrdə makroiqtisadi siyasət, ilk növbədə, makroiqtisadi sabitliyin başlıca göstəricisi olan aşağı inflyasiyaya yönəldiləcəkdir. Aşağı və proqnozlaşdırıla bilən inflyasiya qeyri-müəyyənlikləri aradan qaldırır, ev təsərrüfatlarına, müəssisələrə yığım və investisiyalara dair qərarları daha uzun planlaşdırma horizontunda qəbul etməyə imkan verir.

Qəbul edilmiş «Pul bazarının inkişafı proqramı»na uyğun olaraq, bu sahənin inkişaf etdirilməsi üzrə mütəşəkkil təminatsız banklararası kredit bazarının yaradılması, qiymətli kağızlar bazarının dərinləşdirilməsi və banklararası REPO bazarının formalaşdırılması, banklararası pul bazarının inkişafına xidmət edən infrastruktur elementlərinin inkişafı kimi istiqamətlər nəzərdə tutulur. Dövlət qiymətli kağızlar bazarının dərinləşdirilməsi ölkədə adekvat gəlirlilik əyrisinin və bu əsasda bençmark faiz dərəcələrinin formalaşdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir.

### Nağdsız ödənişlərin əhatəsi genişləndiriləcək

Pul siyasətinin transmissiya effektinin gücləndirilməsi və maliyyə sektorunun resurs bazasının möhkəmləndirilməsində rolunu nəzərə alaraq, Mərkəzi Bank nağdsız ödənişlərin genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcəkdir. Ölkənin nağdsız cəmiyyətə transformasiyasına dair Mərkəzi Bank tərəfindən hazırlanmış dövlət proqramının qəbul edilərək reallaşması yaradılmış müasir ödəniş infrastrukturundan istifadəni əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Mərkəzi Bank son dövrlərdə sürətlə populyarlaşan blokçeyn texnologiyalarının tətbiqi üzrə beynəlxalq prosesləri də izləyir və bu texnologiyalar əsasında maliyyə sektorunda müştəri-bank münasibətlərində rəqəmsal identifikasiya sisteminin yaradılmasını nəzərdə tutan pilot layihə həyata keçiriləcəkdir.

Maliyyə Sabitliyi Şurasının qəbul etdiyi «2017-ci il və ortamüddətli dövr üçün makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi üzrə Tədbirlər Planı»na uyğun olaraq, fiskal qaydaların qəbulu orta və uzun müddətli dövrdə fiskal siyasətin dayanıqlığının təmin edilməsində mühüm rol oynayacaqdır. Ortamüddətli dövrdə fiskal konsolidasiyanın davam etdirilməsi və kəsirsiz büdcəyə nail olunması, stimullaşdırıcı vergi siyasətinə keçid, dövlət xərclərinin iqtisadi artımı və şaxələnməni dəstəkləyən istiqamətlərə fokuslaşması makroiqtisadi sabitliyin qorunmasında və iqtisadi artımın sürətləndirilməsində mühüm rol oynayacaqdır.

Ortamüddətli xərc çərçivəsinin tətbiqinə keçid, iri dövlət şirkətlərində maliyyə intizamının gücləndirilməsi və korporativ idarəetmə standartlarının tətbiqi işləri də davam etdiriləcəkdir.

Ölkədə yeni struktur-institusional islahatların dərinləşdirilməsi, biznes-investisiya mühitinin daha da yaxşılaşdırılması makroiqtisadi sabitliyin və qeyri-neft sektorunda özəl tələbə söykənən inklüziv dayanıqlı artıma nail olmağın mühüm amilləri olacaqdır. Struktur-institusional islahatlar yerli istehsalın artaraq məcmu tələbə daha çevik reaksiya verməsinə şərait yaradacaqdır. Bu da iqtisadiyyatın dərin şaxələnməsinə, idxaldan asılılığın azalmasına və qiymətlərin ortamüddətli dövrdə sabitliyinə xidmət edəcəkdir.




> **“Mərkəzi Bank, hökumətin birrəqəmli inflyasiya proqnozunu da nəzərə almaqla, sərəncamındakı alət və mexanizmlərdən istifadə edərək, 2018-ci ildə inflyasiyanı 6-8% civarında saxlamağa çalışacaqdır**

### Problem yarada biləcək amillər...

Bir sıra xarici və daxili amillər makroiqtisadi sabitlik hədəflərinə nail olmağa problemlər yarada bilər. Bura, ilk növbədə, neftin dünya qiymətinin proqnozlaşdırılan səviyyədən nəzərəçarpan şəkildə aşağı olması və tərəfdaş ölkələrdə iqtisadi aktivliyin azalması nəticəsində tədiyyə balansı göstəricilərinin pisləşməsi aiddir. Dünya üzrə ərzağın qiymətlərində bahalaşmanın davam etməsi əlavə inflyasiyaya səbəb ola bilər. Yüksək və qeyri-simmetrik inflyasiya və məzənnə gözləntiləri, habelə fiskal kəsirin formalaşması makroiqtisadi sabitliyə təsir edə bilər. Maliyyə vasitəçiliyinin bərpa olunmaması və izafi likvidliyin akkumulyasiyasının davam etməsi, ümidsiz borclar probleminin dərinləşməsi, sektorda vəziyyətin mürəkkəbləşməsi, habelə iri dövlət şirkətlərinin maliyyə vəziyyəti ilə bağlı risklər də makroiqtisadi sabitlik və iqtisadi artım üçün təhdidlər yarada bilər.

Qeyd olunan risklər Azərbaycan hökumətinin və Mərkəzi Bankın diqqət mərkəzindədir və onların idarə olunması üçün makroiqtisadi manevr potensialı mövcuddur. Növbəti ildə də Maliyyə Sabitliyi Şurası makroiqtisadi siyasət qərarlarının sıx koordinasiyasını təmin edəcəkdir.

*Hazırladı:*
**A. NƏBİYEVA**

# Lisenziya və icazələrin verilməsi elektronlaşdırılır

Bakı Biznes Mərkəzində keçirilən «Lisenziyalar və icazələr» portalının təqdimat mərasimində İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov özəl bölmənin inkişafının ölkə rəhbərliyi tərəfindən həyata keçirilən uğurlu iqtisadi siyasətin prioritet istiqamətlərindən olduğunu vurğulayaraq bildirib ki, islahatların tərkib hissəsi olaraq lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı isə 4 dəfə azaldılaraq 86-ya endirilib. İndiyə kimi verilmiş qüvvədə olan müddətli lisenziyalar və yeni verilən lisenziyalar müddətsiz lisenziya ilə əvəz olunub, lisenziyaların verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə aşağı salınıb, lisenziyaların verilməsi üçün tələb olunan müddət azaldılıb, prosedurlar sadələşdirilib: «İqtisadiyyat Nazirliyi tərəfindən 2 noyabr 2015-ci il tarixindən dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla, lisenziya tələb olunan fəaliyyət növləri üzrə lisenziyaların «ASAN xidmət» mərkəzləri vasitəsilə verilməsinə başlanılıb və indiyədək 4832 lisenziya təqdim olunub ki, bunun da 2676-sı yeni verilən, 2156-sı isə müddətsiz lisenziya ilə əvəz edilən lisenziyalardır».

Qeyd olunub ki, yeni portal fəaliyyətə başlayandan sonra burada sahibkarlar üçün yaradılan imkanlar sayəsində onların məlumatlandırılması, sahibkarların gələcəkdə portalın çoxsaylı xidmətlərindən istifadə etmək bacarıqlarının artırılması, portalın daha da təkmilləşdirilməsi üçün iş adamlarının rəy və təkliflərinin öyrənilməsi mühüm əhəmiyyət daşıyır: «Sahibkarlar 2018-ci ildən istifadəyə veriləcək portala daxil olmaqla öz fəaliyyət növünə uyğun lisenziya və ya icazə almaq üçün elektron müraciət etməklə lisenziyanı və ya icazəni elektron qaydada ala biləcək, lisenziya və icazə verən orqanlar isə lisenziyaların və icazələrin verilməsi barədə müraciətlərin qəbulunu, hazırlanmasını və cavablandırılmasını elektron qaydada həyata keçirə biləcəklər».

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov son illər dövlət xidmətlərinin göstərilməsi sahəsində genişmiqyaslı islahatların həyata keçirildiyini və bu islahatların vətəndaşların xidmətlərə əlyetərliyinin artmasında əhəmiyyətini vurğulayıb, dünyada Azərbaycan brendi kimi tanınan «ASAN xidmət»in dövlət və özəl xidmətlərin vahid məkandan vətəndaşlara çatdırılması sahəsində uğurlu təcrübə olduğunu qeyd edib.

İqtisadiyyat Nazirliyinin Lisenziyalaşdırma və sahibkarlara xidmətlərin göstərilməsi şöbəsinin müdiri İlqar Poladov qeyd edib ki, «Lisenziyalar və icazələr» portalı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan lisenziya və icazələrin verilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı müraciətlərin qəbulunu, emalını, cavablandırılmasını, lisenziya və icazələrin vahid reyestrinin elektron qaydada aparılmasını, portala inteqrasiya olunacaq informasiya sistemlərindən məlumatların real vaxt rejimində əldə olunmasını təmin edəcəkdir. Lisenziya və icazə verən aidiyyəti orqanların portala qoşulması və informasiya sistemlərinin inteqrasiyası ilə bağlı texniki işlər başa çatdırıldıqdan sonra portal fəaliyyətə başlayacaqdır.

**AYTƏN**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Bakı Fond Birjası ilə Belarus Valyuta-Fond Birjası arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Ölkəmizdə ixracyönümlü məhsullar istehsal edən şirkətlər fevralın 23-25-də Xorvatiyada keçiriləcək «Viroexpo 2018» adlı beynəlxalq iqtisadi, peşə və kənd təsərrüfatı sərgisində iştiraka dəvət olunublar.

Azərbaycanın təbii qazını Avropaya daşıyacaq «Trans-Adriatik»(TAP) qaz boru kəməri marşrutunun 72 faizdən çoxunda borular xətt boyunca düzülüb.

ABŞ-ın məşhur «USA today» informasiya agentliyinin yaydığı məqalədə 2018-ci ildə səyahət edilməli ölkələr sırasında Azərbaycanın paytaxtı Bakı ilk yerlərdən biri kimi qeyd olunub.

Azərbaycanda fəaliyyət göstərən sahibkarlar və iş adamları yanvarın 30-da Tehranda keçiriləcək yemək sənayesi və yuyucu vasitələr, sanitariya, kosmetika, sellüloz sənayesi və onunla əlaqəli olan sənaye sahələrinin ilk ixtisaslaşdırılmış beynəlxalq sərgisində iştirak edəcəklər.

Azərbaycan Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və kartelə daxil olmayan ölkələrlə əldə edilən neft hasilatının azaldılmasına dair Vyana sazişi üzrə öhdəliyini 2017-ci ilin dekabr ayında da yerinə yetirib.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# Uşaqların xoşbəxt gələcəyi naminə...

Cəmiyyətdə vergi mədəniyyətinin formalaşdırılması və gücləndirilməsi, xüsusilə gənc nəslin gələcəyin vergi ödəyicisi kimi yetişdirilməsi, vergi ödəməyin dövlət yolunda şərəf işi olduğuna inandırılması mühüm ictimai əhəmiyyət daşıyır. Əhali arasında vergi mədəniyyətinin səviyyəsinin yüksəldilməsi məqsədilə Vergilər Nazirliyinin istifadə etdiyi rəngarəng üsul və vasitələrdən biri də sosial şəbəkələrdir. Nazirlik özünün «Facebook» səhifəsini populyarlaşdırmaq üçün davamlı olaraq bir sıra təşviqedici tədbirlər keçirir. Ənənəvi olaraq hər il keçirilən tədbirlərdən biri də «Uşaqların gələcəyi naminə» mövzusunda foto müsabiqəsidir. Müsabiqənin şərtlərinə əsasən, yaradıcı foto çəkməyə marağı olanlar mövzu ilə əlaqədar «anı dayandırmağa» müvəffəq olmalı idilər və fotonun hazırlanmasında qrafik kompüter proqramlarından («Photoshop» kimi) istifadə etmək olmazdı.

Gözlənildiyi kimi, mübarizə gərgin keçdi və ciddi seçimdən sonra qaliblər mükafatlandırıldı. 1-ci yeri tutan iştirakçıya «Samsung A3 A310» smartfonu, 2- ci yeri tutana - «Samsung Galaxy Tab», 3-cü və 4-cü yerləri tutanlara isə həvəsləndirici hədiyyələr təqdim olundu.

## Söz qaliblərindir:

**Taleh Valehov (1-ci yer):** «Uşaqlar cəmiyyətimizin yaraşığıdır və onların həyatının müxtəlif anlarını kadrda əbədiləşdirmək insanda böyük zövq yaradır. İndiyədək uşaqlarla bağlı müxtəlif vəziyyətlərdə kadrlar çəkmişdim. Müsabiqədə yer tutan şəkildə isə başına çəmən çiçəklərindən çələng hörülmüş və buna ürəkdən sevinən balaca qızcığaz təsvir olunub. Uşaqları sevincli, daim üzləri təbəssümlü görmək ən böyük arzumdur».



**Tural Hüseynov (2-ci yer):** Mənim təqdim etdiyim fotoda sökülmüş evlərin dağıntıları arasında oyuncağı ilə oynayan balaca körpə təsvir edilib. Bu şəkildə onu deməyə çalışmışam ki, gələcək dəyişən dünyanın içindəki körpələrindir. Təsirli foto olduğundan, yüksək səs toplaya bildim və 2-ci yeri tutdum».

**Ceyhun Babayev (3-cü yer):** «Mən peşəkar fotoqraf deyiləm. Ancaq müsabiqədə iştirak etmək mənim üçün çox maraqlı oldu. Sevinirəm ki, yer tuta bildim».

**Tural İbrahimov (4-cü yer):** Uşaqlar sözlə ifadə olunmayacaq qədər müqəddəs, dəyəri ölçüyə gəlməyəcək qədər qiymətli varlıqlardır. Mən müsabiqə təşkilatçılarına bu mövzunu seçdiklərinə, uşaqlarımızın xoşbəxt gələcəyi naminə daha bir addım atdıqlarına görə minnətdarlığımı bildirirəm».

**Famil Mahmudbəyli (xüsusi mükafat):** «Azərbaycanda uşaqların layiqli vətəndaş kimi yetişmələri, onlarla bağlı sosial problemlərin həlli baxımından dövlət səviyyəsində ciddi addımlar atılır. Azərbaycan uşaqları bu gün dövlətin və cəmiyyətin hərtərəfli qayğısı ilə əhatə edilsə də, təəssüf ki, onların bir qisminin - qaçqın və məcburi köçkün uşaqlarının illərdən bəri doğma torpaqlarda, öz ev-eşiklərində azad, sərbəst yaşamaq hüququnu təmin etmək hələ mümkün olmayıb. Mənim qəhrəmanım Qarabağ müharibəsinin əziyyətlərini görən fiziki qüsurlu Nihatdır. Məqsədim o idi ki, yarışda bu şəklə yer qazandırmaqla balaca qəhrəmanıma, kiçik də olsa, bir həyat stimulu verim və mükafatımı ona bağışlayım».

**FƏXRİYYƏ**


Taleh Valehov


Tural Hüseynov


Tural İbrahimov


Ceyhun Babayev


Famil Mahmudbəyli

## 2018-ci ilin yanvar ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin dekabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən

**2018-ci ilin yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim olunmuş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş verginin bəyannaməsi 2018-ci ilin yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2017-ci ilin 4-cü rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsi və
- ödəmə mənbəyində tutulan verginin bəyannaməsi

**2018-ci ilin yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Xüsusi notariusların gəlir vergisi bəyannaməsi 2018-ci ilin yanvar ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və 2017-ci ilin dekabr ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Dövlər rüsumu haqqında hesabat 2018-ci ilin yanvar ayının 22-dək** vergi orqanına təqdim edilməli, notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülməlidir.

**Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi**

- ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən 2018-ci ilin yanvar ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və 2017-ci ilin dekabr ayı üzrə hesablanmış vergi 2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- Digər vergi ödəyiciləri tərəfindən (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) 2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və 2017-ci ilin dekabr ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

**Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən**

2017-ci ilin 4-cü rübü üzrə hesablanmış cari ödəmələr 2018-ci ilin yanvar ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Cənubi Koreya vergi siyasətinin əsas istiqamətlərini açıqlayıb

Hökumətin rəsmi açıqlamasında bildirilmişdir ki, 2018-ci ildə Cənubi Koreyada biznesin canlandırılması üçün bəzi vergi güzəştləri artırılacaq, özəl əmlakın vergiyə cəlb edilməsinə yenidən baxılacaq. Yanvarın 2-də hökumətin bu il üzrə yürütməyi planlaşdırdığı iqtisadi siyasət barədə ətraflı məlumat yayılmışdır. Bildirilmişdir ki, hökumət daha çox işçi qəbul edən kiçik və orta biznes üçün vergi güzəştləri müəyyənləşdirməklə özəl sektorda layiqli iş yerlərinin yaradılmasına dəstək verəcəkdir. Bunda əlavə, nisbətən kiçik müəssisələri işə cəlb edən iri müəssisələr üçün də vergi güzəştləri tətbiq olunacaq.

Hökumət icarə gəlirlərindən vergi tutmaq, əmlak vergisinə yenidən baxmaq, kreditləri gəlir vergisinin məbləğinə əsasən artırmaq, eləcə də azgəlirli şəxslərə dəstək göstərmək yolu ilə vergi rejiminin daha ədalətli olmasına can atdığını bildirmişdir.

## Bahalı maşın sahibləri vergi ödəyirlər

Yeni ilin maraqlı vergi xəbərlərindən biri də Moldovadandır - lüks maşın sahibləri yanvarın 1-dən bu keçmiş sovet respublikasında vergiyə cəlb olunmuşdur. Qiyməti 1,5 milyon leydən (88 min dollar) baha olan avtomobil sahibləri avtomobilin qiymətinin 2 faizi məbləğində vergi ödəməlidirlər.

Artıq qüvvəyə minmiş «2018-ci il üçün büdcə-vergi və gömrük siyasəti haqqında» Qanuna əsasən, 2 faizlik vergidən əlavə, avtomobili ölkəyə xaricdən alıb gətirən şəxslər maşının tipindən və mühərrikin həcmindən asılı olaraq, aksiz vergisi də ödəməlidirlər. Moldovanın avtomobil ticarəti ilə məşğul olan biznes dairələri bu xəbəri soyuqqanlı qarşılamışlar. Onlar hesab edirlər ki, hökumətin bu addımı avtomobil biznesində cüzi bahalaşmaya səbəb olduğu üçün bazara ciddi təsir göstərməyəcək.

## Yeni ildən aksiz yığımları artırılıb

Yeni il Rusiya Federasiyasında təzə maşın sahibi olmaq istəyənlər üçün sürprizlə başlamışdır: ölkədə yeni avtomobillər üçün aksiz yığımının, eləcə də utilizasiya yığımının dərəcələri artırılmışdır.

Bu ildən qüvvəyə minmiş qanun dəyişikliklərinə əsasən, mühərrikinin həcmi 200 at gücündən 299 at gücünə qədər olan yeni avtomobil üçün aksiz dərəcəsi hər at gücü hesabına 897 rubl (26,3 manat) müəyyənləşdirilmişdir. Mühərrikinin gücü 300 at gücündən 399 at gücünə qədər olan avtomobillər üçünsə bu göstərici 925 rubldur (27,1 manat). Mühərrikinin gücü 500 at gücündən çox olan avtomobil sahibləri hər at gücü üçün aksiz yığımı olaraq dövlət xəzinəsinə 1087 rubl (31,8 manat) ödəyirlər. Beləliklə, bu ildən Rusiyada yeni avtomobillərin qiymətində 11-17 faiz artım olacağı gözlənilir ki, mütəxəssislər indidən bunun bazara ciddi təsir göstərəcəyini proqnozlaşdırırlar.

## Çin xarici şirkətlərə vergi güzəştləri təklif edib



«New York Times» nəşrinin məlumatına əsasən, Vergi Məcəlləsində dəyişiklik olunduqdan sonra Çin Xalq Respublikasının hökuməti ABŞ şirkətlərini bu ölkəni tərk etməkdən daşındırmaq üçün xarici şirkətləri müvəqqəti olaraq vergilərdən azad etmək planı barədə açıqlama vermişdir. Lakin burada ciddi qeyd-şərtlər də vardır: xarici şirkətlər vergi güzəştlərindən faydalanmaq üçün Çin hökumətinin stimullaşdırdığı dəmir yolu, dağ-mədən sənayesi, texnologiya və kənd təsərrüfatı kimi sektorlara investisiya qoymalıdır. Qanun artıq bu il yanvarın 1-dən qüvvəyə minmişdir. Maliyyə Nazirliyinin açıqlamasında qeyd edilmişdir ki, bu addımın atılması xarici investisiyaların artımına və keyfiyyətinin yüksəlməsinə təkan verməli, xarici investorları Çində sərməyə qoymağa həvəsləndirməlidir.

Qeyd edək ki, dünyanın hər tərəfindən olan şirkətlərin Çində geniş fəaliyyət göstərməsinə, yüksək ixtisaslı işçi qüvvəsini ölkəyə cəlb etməsinə, burada müasir infrastruktur yaratmağa böyük töhfələr verməsinə baxmayaraq, həmin şirkətlərdən yüksək vergi tutulur. 25 faizlik standart korporativ vergi dərəcəsindən əlavə, şirkətlər məcburi sosial sığorta və digər ödənişlər etməlidirlər ki, bu da dünyanın bir çox ölkələri ilə müqayisədə Çində vergi yükünün daha ağır olmasına gətirib çıxarır.

## Smartfonlar üçün rüsumlar qaldırılıb

Hindistanda yerli texnika istehsalını artırmaq və «Apple» kimi dünya nəhənglərinə təzyiqi gücləndirmək məqsədilə smartfonlar və digər elektronika məhsulları üçün idxal rüsumları artırılmışdır. İndiyə qədər smartfonların idxalı üçün rüsumun həcmi 10% olduğu halda, artıq 15%-dir.

2017-ci ilin iyun ayından başlayaraq «Apple» şirkəti «iPhone SE» cihazını Hindistan ərazisində yığmağa başlamışdı, bu firmanın digər modelləri isə ölkəyə kənardan gətirilir. Hələlik şirkətin Hindistan bölümü məsələ ilə bağlı açıqlama verməkdən imtina etsə də, şirkətin hökumətə müraciət edərək bir sıra güzəştlər xahiş etdiyi barədə məlumatlar var. Həmin güzəştlərə Hindistanda istehsalın genişləndirilməsi məqsədilə idxal rüsumlarının aşağı salınması da daxildir. Yerli hakimiyyət orqanları şirkətin müraciətini sükutla qarşılamışdır. Ölkədə idxal rüsumlarının artırılması digər şirkətlərin də elektronika məhsullarının bahalaşması ilə nəticələnəcək.

## İsveçrə bankları xarici vergi ödəyiciləri barədə məlumat toplayırlar

Vergi məsələlərinə aid məlumatların avtomatik mübadiləsi ilə bağlı İsveçrə ilə bir çox ölkələr arasında imzalanmış sazişlər artıq yanvar ayının 1-dən qüvvəyə minmişdir. Xarici vergi ödəyiciləri barədə məlumat mübadiləsi Hesabatlılığın Vahid Standartının (CRS) tələbləri çərçivəsində həyata keçirilir. Bu standart onu qəbul etmiş ölkələr arasında informasiyanın avtomatik şəkildə mübadiləsini nəzərdə tutur.

Beləliklə, İsveçrə bankları Avstraliya, Kanada, Avropa İttifaqı ölkələri, Hernsi, Men adaları, Yaponiya, Cersi, Norveç və Cənubi Koreya kimi ölkələr üzrə keçən il ərzində əldə edilmiş vergi və digər sahələrə aid informasiyaları bölüşməyə başlamışlar. Bunlardan əlavə, Bermud adaları, Britaniyanın Virciniya adaları, Kayman adaları və Birləşmiş Ərəb Əmirlikləri ilə bank hesablarına aid informasiyaların birtərəfli mübadiləsi də aparılacaq. Müqavilə şərtlərinə əsasən, bu yurisdiksiyalar məlumatları daimi əsasda İsveçrəyə və digər tərəfdaş ölkələrə təqdim edəcəklər, lakin onlardan məlumat ala bilməyəcəklər.

İsveçrə banklarının 2019-cu ildən avtomatik məlumat mübadiləsi aparacağı ölkələrin tam siyahısı maliyyə məsələləri üzrə Dövlət Katibliyinin rəsmi internet saytında nəşr edilmişdir.

## Çində mobil telefon kredit kartları ilə rəqabətə girib

İndi Çin şəhərlərinin küçələrində mobil telefonuna nəzər göndərilməsini diləyən dilənçilərə rast gəlmək heç kəsi təəccübləndirmir. İqtisadiyyatının böyüklüyünə görə dünya ikincisi olan bu ölkədə ödəniş sistemi sahəsində inqilabi yeniliklər baş verməkdədir və bu yeniliklər özünü həyatın hər üzündə göstərir. Dəbdəbəli ticarət mərkəzlərində, əlüstü yemək şəbəkələrində və ya küçədəki adi göy-göyərti piştaxtasında alış-veriş edən müştəri öz mobil telefonundan ödəniş vasitəsi kimi istifadə edə bilir. Bu yenilik kənd yerləri ilə müqayisədə şəhərlərdə daha çox yayılmış olsa da, Çinin bu başından o başınadək hər yerdə vətəndaşlar taksi haqqının ödənilməsi, avtomatlardan alkoqolsuz içkilərin alınması, evə çağırışlar, hətta vergilərin ödənilməsi və konsertlərə bilet sifarişi üçün öz smartfonlarının yaratdığı imkanlardan həvəslə istifadə edirlər.

«Alipay» və «WeChat» kimi şirkətlər öz istifadəçilərini bank əmanətlərini götürüb müvəqqəti şəkildə onların platformalarında saxlamağa təşviq edən maliyyə və investisiya məhsulları təqdim edirlər. «Yuebao» kimi fondlar yüksək rentabellilik vəd edir, fond istifadəçiləri itkiyə məruz qalmır, öz vəsaitlərini mobil telefon vasitəsilə asanlıqla idarə edə bilirlər. 300 mindən artıq kiçik investoru olan «Yuebao» fondunun kapitalı hazırda 108 milyard avrodan artıqdır və fond ölkənin ən böyük maliyyə qurumları ilə rəqabət aparmaq iqtidarındadır.

## Ukraynada siqaretə tətbiq edilən aksiz vergisi artırılıb

Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən, 2018-ci il yanvarın 1-dən siqaretə tətbiq olunan aksiz vergisinin dərəcəsi artırılmışdır və bu tendensiya 2024-cü ilə qədər davam etdiriləcəkdir. Həmin vaxta qədər tütün məmulatlarına görə tutulan aksiz vergisinin dərəcəsinin tədrici artımı ilə yanaşı, tütün məmulatlarından aksiz vergisinin ödənilməsi üzrə minimal aksiz vergisi öhdəliyi də müəyyənləşdirilmişdir. 2018-ci ildə tütün məmulatları üçün aksiz vergisinin dərəcəsi istehlak qiymətlərinin proqnoz indeksinə uyğun olaraq 11,2 faiz, əlavə olaraq da 16,7 faiz (başqa sözlə, əvvəlki indeksasiya nəzərə alınmaqla ümumilikdə 29,7 faiz) artırılacaq. Bu ildən sonra isə 2024-cü ilə qədər aksiz dərəcələrinin hər il 20 faiz artırılacağı gözlənilir.

Aksiz yığımları dərəcələrinin artırılması planı Avropa İttifaqında qüvvədə olan vergitutmanın minimal səviyyəsinə çatmaq məqsədi daşıyır. Avropa İttifaqında 1000 siqaret üçün aksiz vergisi 90 avro təşkil edir, Ukraynada isə bu göstərici indiyədək cəmi 20 avro idi.



krossvord

**Yuxarıdan aşağı:** 1.Osmanlı dövlətinin 10-cu padşahı Sultan Süleyman Qanuninin həyat yoldaşı və sultan II Səlimin anasının adı; 2.«Uşaqlığın son gecəsi» filmində (1968) Rüstəm obrazını canlandıran aktyorun adı; 3.Muğam, təsnif və Azərbaycan xalq mahnılarının mahir ifaçılarından biri. Azərbaycan radiosunun və Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş bir sıra partiyaları ifa etmiş xanəndə, Azərbaycanın əməkdar artistinin adı; 4.Şirkət və ya təşkilatlar ittifaqı, birləşmə; 5.İordaniyanın paytaxtı; 6.XVIII əsrin ortalarında Cənubi Azərbaycanın qərbində yerləşmiş ən nüfuzlu xanlıqlardan biri; 9.Qədim Misir əfsanəsinə görə, külək və bərəkət (məhsuldarlıq) tanrısı; 13.Vaxt, zaman, an; 15.Feodal Yaponiyasında imtiyazlı hərbi zadəgan silkinə mənsub adam, hərbçi, cəsur döyüşçü; 16.Eramızın 117-138-ci illərində hakimiyyətdə olmuş XIV Roma imperatoru; 17.Azan vermək üçün məscidlərin yanında və ya üstündə ucalan qüllə, qadın adı; 18.Bir şeyi əldə etmək, yaxud bir işi həyata keçirmək üçün lazım olan şey, üsul, yol, alət və s.; 20.Pişiklər fəsiləsinin panter cinsinə aid heyvan növü; 21.İnsanın könüllü surətdə, məcbur edilmədən məşğul olduğu və böyük zövq aldığı fəaliyyət. **Soldan sağa:** 1.«Alma almaya bənzər» filmində (1975) baş qəhrəman - Nadir baba obrazını canlandıran aktyorun adı; 5.Ölkəmizdə ali təhsil müəssisəsinin qısaldılmış adı; 7.Şərab növü; 8.Müsəlmanlarda camaat namazına başçılıq edən, habelə bir məhəllədə nikah, ölüm və s. dini işlərə baxan ruhani; 10.Yazıçı, publisist, geneoloq, Avrasiya Yazıçılar, Azərbaycan Jurnalistlər birliklərinin, Azərbaycan Tarixi Şəcərə cəmiyyətinin üzvünün adı; 11.Yunan filosofu, neoplatomizmin sələfisi; 12.«Səhər» filmində (1960) Mirəli obrazını canlandıran aktyorun adı; 14.Krit adasında qədim şəhər; 19.Ayaq üçün nəzərdə tutulan geyim növü; 21.Ərəb əlifbasında müxftəlif hərflərin üstündə xüsusi tələffüz bildirən işarə. Həm də kişi adıdır; 22.Latviyanın şimal-qərbində çay; 23.Avstraliya İttifaqının paytaxtı; 24.Meyvə, bu meyvənin şərəfinə hər il Göyçay rayonunda festival keçirilir; 25.Hər hansı bir xalqın, dövrün və ya bütün bəşəriyyətin yaratdığı elmi, bədii, fəlsəfi və s. əsərlərin məcmusu.



*«Möhtəşəm yüz il» filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Sineva; 2.Antiqua; 3.Aqraf; 4.Truppa; 5.«Kirpi»; 6.Relikt; 9.Əniq; 13.Kətə; 15.Araxçın; 16.Qrafin; 17.Ştraus *(İohann)*; 18.Pleyer; 20.Rimma *(Məmmədova)*; 21.Atari. **Soldan sağa:** 1.Stalaktit; 5.Kür; 7.Notarius; 8.Ural; 10.Vaqif *(Ucatay)*; 11.Pontiak; 12.Banko; 14.Oqtay *(Kazımov)*; 19.Raritet; 21.Asaul; 22.Foma *(Akvinalı)*; 23.Bazarçay; 24.Nea; 25.Missioner.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Ötən ilə bir nəzər...

## 2017-ci il Azərbaycan güləşçiləri üçün uğurlu və yaddaqalan olub



Güləş üzrə yığma komandalarımız ötən il iştirak etdikləri beynəlxalq turnir və çempionatlarda yüksək nailiyyətlər əldə ediblər. Azərbaycan Güləş Federasiyasından bildiriblər ki, güləş üzrə yığma komandalarımızın üzvləri 2017-ci ildə iştirak etdikləri rəsmi beynəlxalq yarışlarda - Avropa və dünya çempionatlarında və IV İslam Həmrəyliyi Oyunlarında 33 qızıl, 29 gümüş, 37 bürünc olmaqla, ümumilikdə 99 medal qazanıblar.

Son doqquz ilə nəzər yetirdikdə rəsmi yarışlarda güləşçilərimizin nailiyyətlərinin ildən-ilə artdığını görürük. Belə ki, 2009-cu ildə 47, 2010-cu ildə 66, 2011-ci ildə 67, 2012-ci ildə 71, 2013-cü ildə 70, 2014-cü ildə 65, 2015-ci ildə 82 medal, 2016-cı ildə 86 medal qazanılıb. Beləliklə, geridə qoyduğumuz ilin xronikasına nəzər salaq:

- **Dünya Kuboku** yarışlarına qatılan böyüklərdən ibarət sərbəst və yunan-Roma güləşi üzrə yığma komandalarımız ənənəyə sadiq qalaraq ilk üçlükdə qərarlaşıb. İranda keçirilən yarışları yunan-Roma güləşçilərimiz ikinci, sərbəst güləşçilərimiz isə üçüncü sırada başa vurublar.
- **Serbiya**nın Novı Sad şəhərində keçirilən Avropa çempionatında 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanan güləşçilərimiz sərbəst və qadın güləşçilərimiz komanda hesabında ikinci nəticə göstəriblər.
- **Bakı**da təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarını güləşçilərimiz 12 qızıl, 6 gümüş və 5 bürünc medalla başa vurublar.
- **Paris**də keçirilən dünya çempionatını da güləşçilərimiz üçün uğurlu hesab etmək olar. Yığma komandalarımız çempionatı 1 qızıl və 2 bürünc medalla başa vursa da, sərbəst güləşçi Hacı Əliyevin üçüncü dəfə dünya çempionu adını qazanması ilə güləş tariximizdə yeni səhifə yazılıb.
- **Litva**nın Klaypeda şəhərində keçirilən hərbçilərin dünya çempionatını pəhləvanlarımız 2 qızıl, 3 gümüş və 6 bürünc medalla tamamlayıblar. Sərbəst güləşçilərimiz komanda hesabında dünya üçüncüsü olub.
- **Macarıstan**ın Sombateli şəhərində keçirilən 23 yaşadək güləşçilərin (U-23) Avropa çempionatını komandamız 5 qızıl, 1 gümüş və 5 bürünc medalla tamamlayıb. Medal əyarına görə yunan-Roma güləşçilərimiz 3 qızıl medalla çempionatı birinci sırada tamamlayıblar. Komanda hesabında isə yığmamız Avropa üçüncüsü adını qazanıb.
- **Polşa**nın Bıdqoş şəhərində tarixdə ilk dəfə keçirilən 23 yaşadək güləşçilərin dünya çempionatında isə yığmalarımız 5 bürünc medal əldə ediblər.
- **Almaniya**nın Dortmund şəhərində təşkil edilən gənclər arasında Avropa çempionatında pəhləvanlarımız ümumilikdə 3 qızıl, 3 gümüş və 1 bürünc medala sahib olublar. Sərbəst güləşçilərimiz komanda hesabında ikinci nəticə göstəriblər.
- **Finlandiya**nın Tampere şəhərində keçirilən mundialda Azərbaycan yığması 1 qızıl, 1 gümüş və 5 bürünc medal qazanıb.
- **Bosniya və Herseqovina**nın paytaxtı Sarayevoda keçirilən yeniyetmələr arasında qitə birinciliyində pəhləvanlarımız 4 qızıl, 3 gümüş və 3 bürünc medal qazanıblar. Sərbəst güləşçilərimiz 2016-cı ildə olduğu kimi ötən il də komanda hesabında ikinci yeri tutublar.
- **Yunanıstan**ın paytaxtı Afinada keçirilən dünya çempionatında da güləşçilərimiz 10 (3 qızıl, 5 gümüş və 2 bürünc) medal əldə ediblər. Sərbəst güləşçilərimiz komanda hesabında üçüncü yerdə qərarlaşıblar.



Bundan başqa, yığma komandalarımız 2017-ci ildə iştirak etdikləri digər beynəlxalq turnirlərdə 195 medal qazanıblar. Bu medalların 61-i qızıl, 40-ı gümüş və 94-ü isə bürüncdür.

Beləliklə, 2017-ci il ərzində güləşçilərimiz ümumilikdə 294 medal, o cümlədən 94 qızıl, 69 gümüş, 131 bürünc qazanıblar. Bu medallardan 136-sı yeniyetmə, 51-i gənc güləşçilərin payına düşür. İl ərzində U-23 Avropa və dünya çempionatlarında 16 medal qazanan güləşçilərimiz, böyüklərin yarışında 91 medala sahib olublar. Ötən il pəhləvanlarımızın qazandıqları medalların 156-sı sərbəst, 102-si yunan-Roma, 36-sı isə qadın güləşçilərin payına düşüb.

# Cenk Tosun rəsmən «Everton»da...

Türkiyə yığmasının və «Beşiktaş»ın hücumçusu Cenk Tosunun İngiltərənin «Everton» klubuna keçidi rəsmiləşib. Liverpul təmsilçisi rəsmi saytı vasitəsilə türkiyəli futbolçunun transferinin tamamlandığını açıqlayıb. Tərəflər 4,5 illik müqaviləyə imza atıblar. «Everton» 26 yaşlı futbolçunun keçidi üçün qarşı tərəfə 28 milyon avro transfer haqqı ödəyəcək. Premyer Liqa klubu bu məbləğin 24 milyonunu nağd, qalan 4 milyonunu isə Cenkin performansından asılı olaraq, qarşıdakı illərdə ödəyəcək. Hücumçu özü isə yeni klubunda ilə 4 milyon avro qazanacaq. Bu, Türkiyə futbolu tarixində ən bahalı transferdir.
Xatırladaq ki, 2014-cü ildən «Beşiktaş»da çıxış edən futbolçu 96 oyuna 41 qol vurub.



# Qadın voleybolçularımız çətin sınaq qarşısında...

Bu il sentyabrın 30-dan oktyabrın 21-dək Yaponiyanın 6 şəhərində qadınlar arasında voleybol üzrə XVIII dünya çempionatına start veriləcək. 24 milli yığma komandanın iştirakı ilə keçiriləcək turnirdə iştirak etmək üçün 137 ölkə sifariş verib. Bu komandalar dünya birinciliyinin final turnirinə 22 vəsiqə uğrunda mübarizə aparıblar.

Final turnirinin püşkatma mərasimi 2017-ci il dekabrın 7-də Tokioda keçirilib. C qrupuna düşən Azərbaycan komandasının rəqibləri Trinidad və Tobaqo, Tailand, Rusiya, Cənubi Koreya və ABŞ yığmaları olacaq. Növbəti dövrəyə çıxmaq üçün ən azı dördlüyə düşmək zəruridir.

Yaponiya təşkilatçı ölkənin komandası olduğundan, ABŞ isə əvvəlki çempionatın qalibi kimi artıq dünya çempionatına vəsiqəni təmin ediblər. Azərbaycan, Bolqarıstan, Almaniya, İtaliya, Niderland, Rusiya, Serbiya və Türkiyə yığmaları Avropa üzrə ixtisas yarışlarının yekunlarına görə, Qazaxıstan, Çin, Tailand və Cənubi Koreya yığmaları Asiya üzrə ixtisas yarışlarının yekunlarına görə, Dominikan Respublikası, Kanada, Kuba, Meksika, Puerto-Riko, Trinidad və Tobaqo yığmaları Şimali Amerika üzrə ixtisas yarışlarının yekunlarına görə, Argentina və Braziliya - Cənubi Amerika üzrə ixtisas yarışlarının yekunlarına görə, Kamerun və Keniya yığmaları Afrika üzrə ixtisas yarışlarının yekunlarına görə çempionatda iştirak edəcəklər.

## mozaika

### robototexnika




İtaliyanın «e-nova» şirkəti tərəfindən hazırlanmış ikitəkərli «YAPE» dron-kuryerinin ilk sınaqları keçirilib. Qurğunun bu yaxınlarda təşkil ediləcək «CES» sərgisində təqdim olunması planlaşdırılır.

«YAPE» şəhərin küçələrində avtonom hərəkət etmək üçün GPS, videokameralar və məsafəölçən lazerlərdən istifadə edir. Kuryer, həmçinin, müxtəlif parametrləri, xüsusilə işıqforların işini və nəqliyyat axınını izləmək üçün naqilsiz üsulla bütün şəhər üzrə yerləşdirilmiş tənzimləyicilərə qoşulur.

İstifadəçilər dronu mobil proqramın köməyi ilə çağıra biləcəklər. Qurğu sifarişçinin olduğu yerə çatdıqda sifarişçi xüsusi qapaqlı bölməyə 70 kiloqrama qədər yük yerləşdirə və proqramda lazımi təyinat nöqtəsini daxil edə bilər. «YAPE» bir yükləmədə 80 kilometrə qədər məsafə qət etməyə imkan verən elektromotorlar və batareya bloku ilə təchiz olunub. Qurğu saatda 6-20 km sürətlə əsasən səki və velosiped yolları üzrə hərəkət edir.

Dron təyinat nöqtəsinə çatdıqda onu qəbul edən şəxs yük bölməsini aça biləcək. Bunun üçün həmin şəxs «YAPE» sistemində öncədən qeydiyyatdan keçməli və sifətin tanınması funksiyasından istifadə etməlidir.

### texnologiya

## Danışa bilən nitq generatoru




«Google» korporasiyasının mütəxəssisləri canlı insan səsindən fərqlənməyən və danışa bilən nitq generatoru yaradıblar. «Tacotron-2» adlı sistem mətni nitqə yüksək keyfiyyətlə çevirə bilir. Proqram neyroşəbəkələrdən ibarətdir. Birinci neyroşəbəkə mətn əsasında spektroqram yaradaraq «WaveNet» adlı ikinci alqoritmə ötürür. «WaveNet» onu səsləndirir. Qurğu çətin tələffüz olunan sözlərin öhdəsindən asanlıqla gəlir və vərəqdən oxuyaraq durğu işarələrini nəzərə alır, cümlənin sonunu və başlanğıcını intonasiya ilə ayırır. Proqramın işinin nümunələri artıq sistemin səhifəsində yerləşdirilib. Yeni sistemin tezliklə tətbiq olunması gözlənilir.

### tədqiqat

## Arılar gülləri istilik naxışlarına görə axtarır

Bitkilərin həşərat-tozlandırıcıları rəng çalarları və qoxuları ilə cəlb etdiyi məlumdur, ancaq rəng çaları və qoxu - heç də hər şey deyil.

Böyük Britaniyanın Bristol və Ekseter universitetlərinin tədqiqatçıları bununla bağlı «eLife» saytında məqalə dərc etdiriblər. Məqalədə deyilir ki, arılar müxtəlif gülləri temperatura görə, daha dəqiq, ləçəklərdəki temperatur naxışına görə fərqləndirirlər. Əgər teplovizorun köməyi ilə güllərə nəzər salsaq, onlarda rəng çalarını qismən təkrarlayan çox və az isti sahələr görmək olar.

Tədqiqat zamanı arılara seçim üçün zahirən tamamilə oxşar olan, amma istilik naxışı ilə fərqlənən süni güllər təklif ediblər və həşəratlar həmin güllərə açıq-aşkar üstünlük veriblər. Görünür, arılar ən dadlı və nektarla zəngin olan gülləri yalnız rəng çalarına görə deyil, həm də ləçəklərdəki istilik naxışlarına görə axtarırlar.

### fauna

## Azərbaycanda 1,5 milyona yaxın su quşu qışlayır



Azərbaycan Avropada qışlayan quşların ən çox olduğu yerlərdəndir. Burada 1-1,5 milyon yalnız su quşu qışlayır. Digər qışlayan quşlardan isə bəzgəklərin sayına görə ölkəmiz dünyada birinci yerdədir. Belə ki, 100-200 min arası bəzgək respublika ərazisində qışlayır.

Ölkəmizə su quşlarından vağlar və ibislər, bəzi ördəklər və cüllütlər, qağayı və sternalar gəlir. Həmçinin bir çox sərçəkimi və yırtıcı quşların sayı qışlayan quşlardan az olsa da, onların içində bir çox nadir, Dünya Qırmızı Siyahısına və Azərbaycanın Qırmızı Kitabına salınan quşlar var. Məsələn, ağgöz dalğıc, sultantoyuğu, mərmər cürə, qara leylək və s.

Azərbaycan Ornitoloji Cəmiyyətinin direktoru, biologiya üzrə fəlsəfə doktoru Elçin Sultanov bütün Avropanı əhatə edən «Avropanın yuvalayan quşlarının atlası-2» layihəsinin gedişatı haqqında bildirib ki, bu layihəyə postsovet respublikaları, o cümlədən Azərbaycan da qoşulub. Ölkələrin əraziləri GPS sistemi ilə kvadratlara bölünüb ( 50x50 və 10x10-na). Bu kvadratlarda bütün rast gəlinən yuvalayan növlər qeydə alınır və onların təxmini sayı müəyyənləşdirilir. Azərbaycanda 50 kvadratkilometrdən çox ərazidə qeydiyyat aparılır. Artıq ilkin məlumat yığılıb və bütün Avropa üzrə həmin informasiyaların işlənməsi prosesi icra olunur.

### faydalı

## Həm qida, həm də müalicə vasitəsi



Kartof bəşər tarixində yetişdirilən ən qiymətli ərzaq növlərindən biridir. Bəzi slavyan ölkələrində «ikinci çörək» adlandırılan kartof mətbəxdə geniş istifadə edilir. Çox az xörək, qəlyanaltı və salat tapmaq olar ki, onun hazırlanmasında kartofdan istifadə edilməsin. Əvvəllər kartofdan ərzaq kimi istifadə olunmurdu. Almaniyada dekorativ bitki kimi onu park və bağlarda əkir, Fransada isə qadınlar kartof çiçəkləri ilə saçlarını bəzəyirdilər.

Rusiyada ilk dəfə kartofun dadına I Pyotr baxıb. İlk dəfə fri-kartof ABŞ prezidenti Tomas Cefersonun aşpazı tərəfindən qonaqlar üçün hazırlanıb. 2000-ci ildə Belarusun paytaxtı Minskdə kartofa heykəl qoyulub. 2008-ci ildə isə BMT tərəfindən «Kartof ili» elan edilib. Kartof eyni zamanda çəkisizlik şəraitinə düşən ilk tərəvəzdir. 1995-ci ildə onu «Kolumbiya» kosmik gəmisində də yetişdiriblər. Statistikaya görə, hər ABŞ vətəndaşı il ərzində 60, almanlar 120, belaruslar 180 kiloqram kartof yeyir. İslandiyada ən yaxşı içki növlərindən biri kartofdan hazırlanır.

Kartof qanda xolesterinin tərkibini aşağı salır, arterial təzyiqin tənzimlənməsinə kömək edir. Sellüloza və pektin maddələri ilə zəngin olan kartof bağırsaqlar üçün çox faydalıdır. Kartof nişastası əsasında bişirilən kisel mədə və bağırsağı təmizləyir, toplanan zərərli maddələri aparır, iltihab əleyhinə təsir göstərir, selikli qişanın bərpa olunmasına kömək edir. Çiy kartof şirəsi qıcqırmanı aradan qaldırır, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi zamanı müalicəni sürətləndirir. Kartofdan kosmetoloji məqsədlərlə də istifadə olunur.

### Müdriklər deyib ki...

*«Zəhmət çəkilmədən qızıl, gümüş və mis adi filiz olaraq qalar».*

*Mahatma Qandi (1869-1948)*

